25 yanvar 2019 №7 (1592) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Görkəmli kinorejissor Tofiq Tağızadənin 100 illik yubileyi qeyd olunacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadənin (1919-1998) anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək nadir istedada malik rejissor kimi özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirib, ölkə kinematoqrafiyasının daha da zənginləşməsinə töhfələr verərək mədəniyyət tariximizdə dərin iz qoyub.

Qeyd olunur ki, sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", "Yeddi oğul istərəm" və "Dədə Qorqud" filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri var.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

## Aşıq sənətində gənclik və sənətin gələcəyi

### Dəyirmi masada bu barədə ətraflı söz açıldı

Yanvarın 24-də Azərbaycan Aşıqlar Birliyində (AAB) "Aşıq sənəti və gənclik" mövzusunda dəyirmi masa keçirildi.

Tədbir Əməkdar mədəniyyət işçisi, aşıq Gülarə Azaflının rəhbərlik etdiyi "Çeşmə" folklor qrupunun "Paşaköçdü" və "Gülə-gülə" saz havalarının ifası ilə başladı.

AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı tədbiri açaraq aşıq sənətinin Azərbaycan dövlətinin milli mədəniyyət siyasətinin tərkib hissəsi olduğunu bildirdi, birliyin bu sahədə axtarışlarından və gənclərdə aşıq sənətinə marağın artırılması istiqamətində görülən işlərdən danışdı. Qeyd etdi ki, dəyirmi masanın "Aşıq sənəti və gənclik" probleminə həsr olunması ölkəmizdə həyata keçirilən gənclər siyasəti ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi mədəniyyət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin müxtəlif sahələr üzrə gerçəkləşməsində gəncliyin üzərinə mühüm vəzifələr düşür: "Gənclik bu gün, həm də sabah deməkdir. Bu mənada gənclik dövlət siyasətinin tərkib hissəsidir. Bildiyimiz kimi, ötən il Mədəniyyət Nazirliyi ilboyu bu istiqamətdə çox dəyərli işlər gerçəkləşdirib. Cari ildə də bu istiqamətdə lazımi işlər görüləcək. Mədəniyyət Nazirliyi Aşıqlar Birliyinin gənclərlə bağlı layihələrinə hər cür dəstək verir".



davamı səh. 2-də

## İtaliya-Azərbaycan festivalında qalib filmlərə "Zoroaster" mükafatı veriləcək




Yanvarın 25-dən 30-dək Bakıda ilk dəfə İtaliya-Azərbaycan Beynəlxalq film festivalı keçiriləcək.

Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, İtaliyanın ölkəmizdəki səfirliyi, "İmago Group", "United Cultures" və "Sandro Teti Editore" film istehsalı şirkətləri, Nizami Kino Mərkəzi və "The Landmark"ın birgə dəstəyi ilə reallaşır. Layihə müasir dövr İtaliya və Azərbaycan kino sənayesinin nümunələrini təbliğ etmək məqsədi daşıyır.

Festival çərçivəsində ümumilikdə 15 film nümayiş olunacaq. Qalib filmlərə "Zoroaster award" mükafatı təqdim ediləcək.

səh. 3

## Avropa Şurasında ölkəmizdəki internet mühitindən bəhs edilib

Jurnalistikanın və mətbuat işçilərinin ən müxtəlif problemləri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Mədəniyyət, elm, təhsil və media komitəsinin daimi diqqətindədir. AŞPA-nın qış sessiyasının gündəliyində də komitənin təqdim etdiyi 3 məruzə yer alıb. "İnternet və insan hüquqları" məruzəsi getdikcə həyatımızda daha artıq yer tutan vacib mövzuya həsr edilib.

Müzakirələrdə çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov uzun illərdən bəri mətbuatla bağlı, həm Azərbaycan kütləvi informasiya vasitələrində, həm də beynəlxalq radiolarda çalışmış bir insan kimi bu xüsusda müqayisələr aparmaq imkanının olduğunu bildirib.



"Azərbaycanın 2000-ci illərin əvvəlləri ilə indiki mətbuat həyatını, internet şəbəkəsinin, sosial medianın həmin dövrdəki və indiki mənzərəsini tutuşduranda, sözün birbaşa mənasında, çox da böyük olmayan zaman kəsiyində sıçrayışlı irəliləyişlərə nail olunduğunu görürük", – deyə Milli Məclisin komitə sədri qeyd edib. Rafael Hüseynov bu inkişafın yalnız artan rəqəmlərdə deyil, keyfiyyətdə də ifadə olunduğunu, Azərbaycan əhalisinin əksəriyyətinin sosial şəbəkənin fəal istifadəçiləri olduğunu vurğulayıb.

davamı səh. 3-də



## Kamera və orqan musiqisi zalında "Qış kaleydoskopu"

Mədəniyyət Nazirliyinin dəstəyi, "Mədəniyyət" kanalı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə gerçəkləşən "Gənclərə dəstək" layihəsi davam edir.

Layihə üzrə bu ilin ilk konsert proqramı filarmoniyanın Kamera və orqan musiqisi zalında reallaşdı. "Qış kaleydoskopu" adlı gecədə Fikrət Əmirovun "Rəqs", Tofiq Quliyevin "Sevinc mahnısı", Yohann Sebastian Baxın "Polonez", Robert Şumanın "Cəsur atlı", "Melodiya", Bela Kovaçın "Şalom", Samuel Maykaparın "Postuşok", Yohannes Bramsın "Rapsodiya" və başqa əsərlər səsləndirildi.

səh. 4

## Gənclər gününə həsr olunmuş musiqi festivalı keçiriləcək

Gənc nəslin mənəvi-bədii zövqünün formalaşması, onların dünyagörüşünün genişlənməsini təmin etmək məqsədilə 1-3 fevral tarixində Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Akademik Filarmoniyası və Azərbaycan Bəstəkarlar İttifaqının birgə layihəsi üzrə 2 fevral – Gənclər gününə həsr olunmuş "Gəncliyə töhfə" musiqi festivalı keçiriləcək.

Festivalın məqsədi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası Bəstəkarlıq fakültəsinin yetişdirdiyi istedadlı, təhsillərini xarici ölkələrdə davam etdirən, mütəmadi olaraq beynəlxalq müsabiqə və festivallarda Azərbaycan musiqisini yüksək səviyyədə təmsil edən gənc bəstəkarların simfonik, kamera və xalq çalğı alətləri orkestrləri üçün yazılmış əsərlərinin ictimaiyyətə tanıdılmasıdır.

"Gəncliyə töhfə" musiqi festivalı çərçivəsində fevralın 1-də Vyana Konservatoriyasının məzunu, Azərbaycan Dövlət Akademik Filarmoniyasının dirijoru Mustafa Mehmandarovun rəhbərliyi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edəcək.

Fevralın 2-də Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin, fevralın 3-də filarmoniyanın Kamera və orqan musiqisi zalında gənc istedadların iştirakı ilə konsertlərin keçirilməsi nəzərdə tutulub. Konsertlərdə Lalə Cəfərova, Tahir İbişov, Arzu Abbasova, Tamilla Əhmədova, İlahə İsrafilova, Ülkər Məmmədli, Vəfa Bağırzadə, Tural Məmmədli, Sevinc Balabəyova, Nərminə Nağıyeva, İlhamə Həsənova, Toğrul Salmanov kimi istedadlı bəstəkarların əsərləri səslənəcək.

## "Zirvəyə doğru" – Təbrizdən Bakıya

Təbrizin "Barış" etno-rok musiqi qrupunun solisti və rəhbəri Məsud Barış bəstəkar Tural Məmmədli ilə birgə ərsəyə gətirdiyi "Zirvəyə doğru" diskinin təqdimatı ilə bağlı Bakıya gəlib.

Yanvarın 24-də təqdimatı keçirilən diskə 11 mahnı daxil edilib. Hər iki müəllifin bəstələrinin yer aldığı diskdəki ifalar Məsud Barışa məxsusdur.

Birgə albomdan bəhs edən Məsud Barış AZƏRTAC-a müsahibəsində deyib: "Əsasən vokal ifaçısı kimi tanınsam da, Tural Məmmədlinin bəstələri çox xoşuma gəldi. İnanıram ki, diskdə yer alan mahnılar dinləyicilərin ürəyincə olacaq".

Bakıda bir neçə dəfə musiqisevərlər qarşısında çıxış etdiyini söyləyən soydaşımız burada təhsil almasından da danışıb: "Bakıya gəlişim adi bir təsadüf nəticəsində baş verdi. İllər öncə Azərbaycanın görkəmli vokal ustası Lütfiyar İmanov Təbrizdə konsert verərkən səhnəni yerli ifaçılarla bölüşürdü. O, çox ifaçını dinləsə də, mənə üstünlük verərək dedi: "Sən mənim gəncliyimi xatırladırsan".

Onunla birgə konsert verdik. Lütfiyar müəllimin dəvəti ilə ilk dəfə Bakıya gəldim, burada bir il ondan sənətin sirlərini öyrəndim".

davamı səh. 5-də

## Həyat və yaradıcılıq sevincinə həsrət

Əməkdar rəssam Ələkbər Rzaquliyev. Təsviri sənətin qrafika sahəsində geniş şöhrət qazanan bu sənətkar zəngin yaradıcılığı ilə bərabər, talе kəmliyinə görə də müasirlərindən fərqlənib...

İllərini sürgündə itirən rəssam gecəni gündüzə qatıb işləyir. Ağrı-acılarla dolu böyük bir dövrün yaddaşını tabloya köçürməyə can atır...

Ələkbər Rzaquliyev yaradıcılığı boyu cəmi iki rəngli rəsm çəkib - "Azərbaycanlı qadın" və "Pəhləvanlar". Qalan əsərləri ağ-qaradır.

səh. 7

İsveçrəli və azərbaycanlı fotoqrafların birgə sərgisi



səh. 4

"Nəsimi ili" elan olunması böyük mütəfəkkirin təbliğ etdiyi humanizm ideyalarının yaşadılmasına çağırışdır

səh. 3



Əsas "Oskar" uğrunda səkkiz film yarışır

səh. 8

# Azərbaycanın təşəbbüskarı olduğu layihələr regional sülh və sabitliyə zəmin yaradır

Azərbaycan dünyada böyük etimad qazanan ölkədir. Digər ölkələrlə qarşılıqlı fəaliyyətdə bizim siyasətimiz müsbət ssenariyə əsaslanır. Biz müsbət tərəfdaş, dost olmaq istəyirik. Biz imkanımız olduqda kömək etmək istəyirik. Azərbaycan artıq müstəqil xarici siyasəti olan ölkə kimi tanınır və daxili sabitlik, iqtisadi inkişaf bizə bu gücü verir. Eyni zamanda, biz hər hansı bir ölkəyə zərər vurmuruq. Biz, sadəcə, daha yaxşı münasibətlər qurmaq, daha çox iş görmək, insanlarımıza daha yaxşı şərait qurmaq istəyirik, sülh və harmoniya içində yaşamaq istəyirik.



Prezident İlham Əliyev bu sözləri yanvarın 21-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsində deyib.

Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti yanvarın 21-dən 23-dək İsveçrənin Davos şəhərində ənənəvi Dünya İqtisadi Forumu çərçivəsində bir sıra görüşlər keçirib, "Rossiya 1" televiziya kanalına, Çin televiziyasına müsahibələr verib.

Dövlət başçısı Çinin CGTN kanalına müsahibəsində ölkəmizin müasir qlobal çağırışlar qarşısında inkişafı, yeritdiyi siyasət barədə sualları ətraflı cavablandırıb.

Azərbaycanın üzləşdiyi münaqişənin həll edilməsi, ərazi bütövlüyünün bərpa edilməsində artan iqtisadi imkanların rolu barədə suala cavabında Prezident İlham Əliyev bildirib ki, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən, iyirmi beş il əvvəl qəbul olunan dörd qətnaməsi icra olunmur: "Buna görə də biz hədəfimiz olan ərazi bütövlüyümüzün bərpa edilməsi və bir milyondan artıq insanın evlərinə qayıtması üçün daha güclü, daha uğurlu və daha effektiv olmalıyıq. Buna görə də özümüzü təminetmə, öz resurs və ehtiyatlarımıza arxalanma siyasətimiz artıq bizi uğura aparır".

Ötən illərdə Azərbaycana ümumilikdə 250 milyard dollar investisiya qoyulduğunu vurğulayan dövlət başçısı qeyd edib ki, biz qonşularımızla çox uğurlu əməkdaşlıq formatı yaratmışıq: "Beləliklə, torpaqlarımızın işğalını davam etdirən ölkə bütün bunları qiymətləndirməlidir. Başa düşməlidir ki, onlar da bu böyük əməkdaşlıq formatının bir tərəfi ola bilərdi, yəni, enerji, neft-qaz, nəqliyyat, bağlılıq layihələrindən asılı olub-olmayaraq. Bütün bu layihələr onlardan yan keçir, bir səbəbə görə: səbəb işğaldır. İşğala son qoyulsa, onda əlbəttə ki, bizim regionumuzda daha geniş beynəlxalq əməkdaşlıq və davamlı sülh olardı".

Prezident bir neçə il öncə Çinə rəsmi səfəri zamanı bu ölkə ilə də bir neçə mühüm sənəd imzalandığını xatırladıb və Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü Azərbaycanın dəstəklədiyini deyib. Qeyd olunub ki, "Bir kəmər, bir yol" bizim üçün, həqiqətən, çox əhəmiyyətli layihədir və Azərbaycan bu layihənin çox fəal üzvünə çevrilmək niyyətindədir: "Biz nəqliyyat şəbəkəsini Avropaya qədər uzatmışıq və Bakı-Tbilisi-Qars dəmir yolunu çəkməklə xətləri birləşdirmişik. Çindən Avropaya doğru başlayan daşımaların çox sayda istiqamətləri var. Biz bu prosesdə daha yaxından iştirak etmək arzusundayıq. Bu məqsədlə, əlbəttə ki, Mərkəzi Asiyada, Gürcüstanda, Türkiyədə və Avropadakı tərəfdaşlarımızla işləyirik. Hazırda Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir".

Prezident həmçinin insanlar arasında təmasların əhəmiyyətini vurğulayıb və Çin vətəndaşları üçün elektron viza verilməsinin asanlaşdırıldığını diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan Çinlə ticarəti də inkişaf etdirir. Azərbaycanın ilk ticarət nümayəndəliklərindən biri Çində açılıb. Bütün bunlar ticarət sahəsində güclü tərəfdaşlığı qurmaqda, insanlar arasında təmasların yaradılmasında iradəmizi nümayiş etdirir.

Qeyd edək ki, yanvarın 22-də Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər.

Dövlət başçısı sessiyada çıxışında da Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkə regional və transmilli layihələrdə rolundan söz açıb. "Müasir infrastrukturunuz, qazlaşdırmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda onda bizneslər üçün də investisiya yatırmaq daha asan olacaq. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son "Doing Business" hesabatına əsasən Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq", - deyə İlham Əliyev bildirib.

Prezident onu da vurğulayıb ki, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu layihələr geosiyasi vəziyyətə, sabitliyə, proqnozlaşdırmaya müsbət təsir göstərir: "Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq".

## "Qoyya"nın növbəti nümayişi

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarına ötən il daxil olan "Qoyya" birpərdəli baleti fevralın 3-də növbəti dəfə sənətsevərlərə təqdim ediləcək.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin və Xalq artisti, professor Fərəc Qarayevin musiqisi əsasında səhnələşdirilən baletin quruluşçu xoreoqrafı Estoniyanın Əməkdar artisti, Sankt-Peterburq "Dance Opera" balet festivalının bədii rəhbəri, UNESCO yanında Beynəlxalq Rəqs Şurasının üzvü Vasili Medvedyevdir.

Tamaşanın quruluşçu rəssamı Rusiya Rəssamlıq Akademiyasının akademiki Dmitri Çerbadji, libretto müəllifi türkiyəli yazıçı Yana Temiz, xormeysteri Azərbaycanın Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır. Səhnə əsərində Cəmilə Kərimova, Timur Oduşev, Makar Ferştandt və Samirə Məmmədova çıxış edir.

## Tələbələrin diplom tamaşası




Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) tələbələri yanvarın 24-də Dövlət Gənc Tamaşaçılar Teatrında "Bremen musiqiçiləri" adlı diplom tamaşasını təqdim ediblər.

ADMİU-dan bildiriblər ki, tamaşada Teatr sənəti fakültəsinin musiqili teatr aktyoru ixtisasının IV kurs tələbələri Seymur Xudiyev, Nəzrin Əliyeva, Kamil Nazim, Elvin Bəxtiyarlı, Nicat Qurbanzadə, Raksana İmir, Aytac Məmmədova, İmdad Tofiqoğlu, Aytac Quliyeva və Azad Şabanov çıxış ediblər.

Tamaşanı ADMİU-nun rektoru, professor Ceyran Mahmudova, teatr sənəti fakültəsinin dekanı, dosent Ellada Hüseynova izləyiblər.

İki gəncin saf sevgisindən bəhs edən tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, səs rejissoru Aygül Quliyeva, işıq rejissoru Vadim Kuskovdur.

Kursun rəhbəri Əməkdar artist Vidadi Həsənov, səhnə danışığı müəllimi dosent Kəmalə Mehdiyevadır.

## Muzeydə Arxeologiya klubu yaradılıb

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində (MATM) Arxeologiya klubu yaradılıb.

Muzeyin Arxeologiya elmi fond şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nasir Quluzadə bildirib ki, əsas məqsəd gənc nəslin arxeologiya sahəsində biliklərini artırmaq, mədəni irs və tarixi abidələrimizi təbliğ etmək, bu istiqamətdə təhsil müəssisələrində maarifləndirici tədbirlər keçirməkdən ibarətdir.

Muzeyin arxeoloji kolleksiyasına 50 mindən çox arxeoloji və təsadüfi tapıntı daxildir. Bütün arxeoloji tapıntılar qeydiyyatdan keçirilərək qablaşdırılır və fondda saxlanılır. 2008-ci ildən bəri fond əşyalarının elektron pasportlaşdırılması həyata keçirilir. İndiyədək 12 mindən çox arxeoloji tapıntının elektron pasportu tərtib olunub. Muzeyin ekspozisiyasında 1195 arxeoloji eksponat nümayiş etdirilir.

## "Kəpəz kuboku" uğrunda rəqs yarışı

26-27 yanvar tarixində Azərbaycan Gənclər İttifaqının və Azərbaycan Rəqs Assosiasiyasının təşkilatçılığı ilə Gəncə Dövlət Filarmoniyasında "Kəpəz kuboku 2019" yarışı keçiriləcək. Tədbirə Mədəniyyət Nazirliyi və "Jam Group" dəstək verir.

Rəqs yarışması dörd yaş kateqoriyası üzrə keçiriləcək: 6 yaşadək, 10 yaşadək, 16 yaşadək və 16 yaşdan yuxarı.

## Aşıq sənətində gənclik və sənətin gələcəyi

### Dəyirmi masada bu barədə ətraflı söz açıldı

əvvəli səh. 1-də

Məhərrəm Qasımlı ötən illərdə AAB tərəfindən gənclərlə bağlı "Misri "Sarıtel", "Koroğlu havaları" adlı disklərin buraxıldığını vurğuladı, bu layihələrin də təşkilində və təbliğində Mədəniyyət Nazirliyinin yaxından dəstək olduğunu bildirdi.

Sədr aşıq sənətinin az inkişaf etdiyi bölgələrdə bu sahəyə marağın artmasından da danışdı. Qeyd etdi ki, ki, bu gün cənub bölgəsindən, eləcə də Zəngilan, Cəbrayıl, Qubadlı və digər rayonlardan olan gənclərdə bu sənətə böyük maraq yaranıb: "Bir müddət efirlərdə yayımlanan şou proqramlar milli dəyərləri üstələyirdi. Bunun qarşısı vaxtında alındı. Azərbaycan dövləti özünün humanitar siyasət strategiyasında muğam sənətinə, aşıq sənətinə və xalq mahnılarına xüsusi diqqət yetirdi. Müxtəlif tədbirlərdə, müsabiqələrdə yeni istiqamətlər görünməyə başladı".





AMEA-nın Folklor İnstitutunun əməkdaşı, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli çıxışında aşıq sənətinə dövlət qayğısından danışdı. Bildirdi ki, bu gün aşıqlarımızın səs-sorağı yaxın-uzaq ölkələrdən gəlir. Aşıq sənəti özünün "qızıl dövr"ünü yaşayır. Azərbaycan aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Prezident İlham Əliyevin mədəniyyətə göstərdiyi yüksək qayğı nəticəsində xalqımızın qeyri-maddi mədəni irs nümunələri dünya miqyasında geniş təbliğ olunur. Bu xüsusda Heydər Əliyev Fondunun mədəniyyət layihələrinin müstəsna yeri var. Son illər aşıqların iştirakı ilə xarici ölkələrdə konsert proqramlarının təşkili və aşıqlara fəxri adların verilməsi, yubileylərinin keçirilməsi, kitabların çap edilməsi, orta və ali musiqi məktəblərində aşıq sənətinin tədris olunması və s. istiqamətlərdə mühüm işlər görülüb.

Əməkdar mədəniyyət işçisi aşıq Əhliman Rəhimov diqqətə çatdırdı ki, gənc aşıqlar mütaliədən uzaq düşməməli, ustadların təcrübəsindən istifadə etməlidirlər: "Bu gün bizim yaxşı solo ifaçılarımız olsa da, dastan söyləyən, bədii yaradıcılığı olanlar, təəssüf ki, azdır".

Filologiya üzrə fəlsəfə doktoru aşıq Altay Məmmədov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aşıq sənəti ixtisası üzrə təhsil alan tələbələrdən danışdı: "Onların istedadının üzə çıxması üçün davamlı iş aparırıq. Hamısının yaxşı səsi olmasa da, ümidverici gənclər də var. Təəssüf ki, klassik aşıqlarımız onları az maraqlandırır".

Aşıq Gülarə Azaflı ozan sənətinin gələcəyi barədə fikirlərini bölüşdü, gənc aşıqlara dəstəyin vacibliyini qeyd etdi: "Düşünürdüm ki, bizdən sonra bu sənəti kimlər yaşadacaq. Ona görə də marağımı və meylimi gənc aşıq qızlarımızın yetişməsinə həsr etdim. Fikrimcə, gənc nəsildə bu sənətə dərin maraq yaratmaq üçün kökə toxunmadan yeniliklər etmək lazımdır".

Mədəniyyət Nazirliyinin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin aparıcı məsləhətçisi Elgün Əliyev qeyd etdi ki, aşıq yaradıcılığı nazirliyinin daim diqqət mərkəzindədir. Bu sahənin inkişafına bundan sonra da Mədəniyyət Nazirliyi tərəfindən lazımi köməklik göstəriləcək.

Dəyirmi masada Azərbaycan Milli Konservatoriyasının dosenti Mübariz Əliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hafiz Kərimov, əməkdar mədəniyyət işçiləri Ulduz Quliyeva, Samirə Əliyeva, Musa Nəbioğlu, Prezident təqaüdçüsü, aşıq Mahmud çıxış edərək bu sənətin uğurlu gələcəyi üçün görüləcək işlərdən danışdılar. Qeyd edildi ki, bu sahənin inkişafı ilə bağlı təkcə müvafiq tədris ocaqları səviyyəsində deyil, bütün ölkə üzrə iş aparılmalıdır.

**Savalan FƏRƏCOV**

## Ermitajda ziyarətçilər üçün mobil əlavə

### Növbədə durduqları zaman da ekspozisiyalar haqqında məlumat ala biləcəklər

Rusiya Dövlət Ermitajı burada sərgilənən eksponatlar barədə ziyarətçilərə məlumat verəcək proqram hazırlayıb.

Muzeyin baş direktoru Mixail Piotrovski bildirib ki, bu proqram ziyarətçilərə hələ növbədə durduqları zaman ekspozisiyalar, əsasən onların düzülüşü barədə məlumat toplamağa şərait yaradacaq.

Baş direktorun sözlərinə görə, muzey ziyarətçilərinin hazırlıq səviyyəsi böyük problemlərdən biridir. Onlar adətən bir eksponatın dövrəsinə yığılaraq digərlərinə diqqət yetirmirlər. Bununla bağlı Ermitajda "Digər şah əsərlər" adlı proqram yaradılıb.



"Muzeydə bir yerə toplaşma problemi onunla bağlıdır ki, hamı eyni eksponata baxmağa gedir. Lakin hər bir muzeydə, o cümlədən Ermitajda o qədər mühüm əşyalar var ki, onlara baxmaq çox maraqlıdır. Yeni proqramın köməyilə biz insanları nəinki Rafaelə, həmçinin Pazırık xalısına (Altayda tapılan və eramızdan əvvəl V-IV əsrlərin Pazırık mədəniyyətinə aid edilən) tamaşa etməyə istiqamətləndirməyə cəhd göstəririk", - deyə muzeyin direktoru bildirib.

Dövlət Ermitajının kolleksiyası 3,1 milyon eksponat, o cümlədən rəssamlıq, qrafika, heykəltəraşlıq əsərləri və tətbiqi sənət nümunələri, arxeoloji tapıntılar və numizmatik materiallardan ibarətdir. 2018-ci ildə Ermitajın ziyarətçilərinin sayı 4,3 milyon nəfər olub.

# İtaliya-Azərbaycan festivalında qalib filmlərə "Zoroaster" mükafatı veriləcək




Xəbər verdiyimiz kimi, yanvarın 25-dən 30-dək Bakıda ilk dəfə İtaliya-Azərbaycan Beynəlxalq film festivalı keçiriləcək.

Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, İtaliyanın ölkəmizdəki səfirliyi, "İmago Group", "United Cultures" və "Sandro Teti Editore" film istehsalı şirkətləri, Nizami Kino Mərkəzi və "The Landmark"ın birgə dəstəyi ilə reallaşır.

Layihə müasir dövr İtaliya və Azərbaycan kino sənayesinin nümunələrini təbliğ etmək məqsədi daşıyır.

Festival çərçivəsində ümumilikdə 15 film nümayiş olunacaq. O cümlədən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan Şamil Əliyevin "Çölçü", Mirbala Səlimlinin "Qırmızı bağ", Elçin Musaoğlunun "Nabat", "Azərbaycanfilm"in "Butafilm" kinoşirkəti ilə birgə çəkdiyi "Nar bağı" filmləri festivalda göstəriləcək.

Qalib filmlərə "Zoroaster award" mükafatı təqdim ediləcək.

Mükafatlandırma mərasiminə tanınmış italiyalı aktyor və rejissor Remo Girone rəhbərlik edəcək, italyan ssenarist və rejissor Claudio Rossi Massimi festivalın bədii rəhbəridir.

# Holokost və Xocalı müasirlərin gözü ilə

Yanvarın 24-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Azərbaycan dağ yəhudiləri və Avropa yəhudi dini icmalarının, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin dəstəyi və təşkilatçılığı ilə "Holokost və Xocalı – müasirlərin gözü ilə" mövzusunda dəyirmi masa keçirilib.

Əvvəlcə Holokost və Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov tədbiri açaraq bildirib ki, İkinci Dünya müharibəsi dövründə baş vermiş Holokost və 1992-ci ildə törədilən Xocalı soyqırımları zaman etibarı ilə bir-birindən uzaq olsalar da, mahiyyətcə oxşar faciələrdir. O, diqqətə çatdırıb ki, BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş qətnaməyə əsasən hər il yanvarın 27-si Holokost qurbanlarının Beynəlxalq anım günü kimi qeyd edilir.



Rəvan Həsənov yəhudilərin əsrlərdir ölkəmizdə yaşadıqlarını vurğulayaraq deyib ki, Azərbaycanda heç vaxt antisemitizm meyilləri olmayıb, burada yaşayan bütün etnik icmalar bir-biri ilə dostluq münasibətləri qurublar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin aparıcı məsləhətçisi Anar Əlizadə bildirib ki, etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuş Azərbaycan xalqı yəhudi xalqını, onun üzləşdiyi tarixi fəlakəti yaxşı başa düşür. Azərbaycan tarixinin ən qanlı səhifəsi olan Xocalı faciəsinin və Holokost qurbanlarının xatirəsi ölkəmizdə hər il yad edilir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin rəhbəri Tural Gəncəliyev deyib ki, yəhudi və Azərbaycan xalqlarını böyük faciələr və qəhrəmanlıqlar birləşdirir. Holokost Xocalı soyqırımı kimi insanlığa qarşı törədilmiş cinayətdir. Yəhudi və Azərbaycan xalqları bir-birinin faciəsini dərk edir. O, 1918-ci ildə Qubada yəhudi icması üzvlərinin də erməni-daşnak dəstələri tərəfindən soyqırımına məruz qaldıqlarını xatırladıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, belə cinayətlərin baş verməməsi üçün Xocalı soyqırımının səbəbkarları cəzalandırılmalıdır.

Tədbirdə deputatlar Hikmət Babaoğlu, Elman Nəsirov, Elman Məmmədov, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev, Azərbaycan Avropa Yəhudiləri Dini İcmasının rəhbəri Aleksandr Şarovski, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov və başqaları çıxış ediblər. Çıxış edənlər Azərbaycanda Holokost faciəsinin anılmasını ölkəmizdəki multikultural və tolerant əhvalın göstəricisi kimi dəyərləndiriblər.

# Milli Qəhrəman Viktor Seryogin haqqında filmin təqdimatı



Yanvarın 28-də Milli Aviasiya Akademiyasında Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginə həsr edilmiş sənədli filmin təqdimatı olacaq. Tədbir Mədəniyyət Nazirliyi, Azərbaycan Hava Yolları və Milli Aviasiya Akademiyasının təşkilatçılığı ilə keçiriləcək.

"Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən "Salnaməfilm" studiyasında çəkilən "Viktor Seryogin" filminin rejissoru Cəmil Fərəcov, operatoru Nizami Abbasdır.

# Moskvada azərbaycanlı pianoçunun konserti



Fevralın 16-da "Azərbaycan ifaçıları Moskva Konservatoriyasının kamera zallarında" silsiləsi çərçivəsində respublikamızın Əməkdar artisti, pianoçu Gülşən Ənnağıyevanın konserti olacaq.

Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunacaq konsertin proqramına N.Mirişli, F.Qarayeva, E.Denisova, O.Messian, V.Yekimovski, Y.Vorontsov və K.Debüssinin əsərləri daxil edilib.

Konsertdən əvvəl sənətşünaslıq doktoru, Müasir Musiqi Assosiasiyasının aparıcı eksperti Rauf Fərhadov çıxış edəcək.

# Özbəkistandakı Nukus Pedaqoji İnstitutunda "Azərbaycan ocağı" yaradılacaq

Özbəkistanın Qaraqalpaq Muxtar Respublikasındakı Nukus Dövlət Pedaqoji İnstitutunda "Azərbaycan ocağı" yaradılacaq. Bu barədə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov və NDPİ-nin rektoru, professor Bayrambay Otamuratov arasında görüşdə razılıq əldə edilib.

Bayrambay Otamuratov ölkələrimiz arasında əlaqələrin inkişafından danışıb, institutda "Azərbaycan ocağı" üçün müvafiq salon ayrılması, habelə mərkəzin müvafiq inventar və avadanlıqla təmin edilməsi və digər məsələlər haqqında söhbət açıb.

Samir Abbasov iki ölkə arasında yüksək səviyyəli münasibətlər və son illər mədəniyyət sahəsində həyata keçirilən layihələrdən danışıb. O, "Azərbaycan ocağı" üçün müvafiq nəşrlərin, milli mədəniyyətimizə dair suvenirlərin, milli geyimlərin, foto və rəsmlərin, filmlərin, musiqi disklərinin və s. AMM tərəfindən təmin ediləcəyini bildirib. "Azərbaycan ocağı"nda alimlərin iştirakı ilə tədbirlərin, açıq dərslərin, həmçinin müxtəlif sərgilərin keçirilməsi təklif edilib.

Bu ilin sentyabr-oktyabrında Nukus şəhərində "Azərbaycan mədəniyyət və ədəbiyyat günləri"nin keçirilməsi, bu tədbirlər çərçivəsində institutda iki ölkə arasında mədəni-ədəbi əlaqələrə dair elmi konfransın təşkili, "Azərbaycan ocağı"nın rəsmi açılışı, şəhərdə Azərbaycan musiqi və rəqslərindən ibarət konsertin, sərginin təşkili ilə bağlı razılıq əldə olunub.

# Türkiyədə vokalçıların müsabiqəsində birinci yer

Azərbaycanlı tələbə Fərhad Rəhimli Türkiyədə vokalçıların müsabiqəsinin qalibi olub. Müsabiqə "TRT Music" telekanalı ilə yayımlanıb.

Yüzlərlə iştirakçı arasından seçilmiş həmvətənimizin çıxışı hamını riqqətə gətirib. Onun ifasını dinləyərkən münsiflər heyətinin üzvü Koray Avcı və verilişin aparıcısı Duyqu Atakanın gözləri yaşarıb. Koray Avcı Fərhad Rəhimlinin səsinin bənzərsiz olduğunu deyib.

Müsabiqə şərtlərinə görə, qalib gəlmiş iştirakçının münsiflər heyətinin üzvü ilə duet oxumaq hüququ var. Fərhad bu hüququndan istifadə edərək bəstəkar, müğənni və musiqi tənqidçisi Koray Avcı ilə duet oxuyub.

# "Kitabların qanadlarında" oxu müsabiqəsinə yekun vurulub

Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Tərtər rayon MKS-nin Mərkəzi və Uşaq kitabxanalarının keçirdiyi "Kitabların qanadlarında" adlı sürətli oxu müsabiqəsinə yekun vurulub.



Üç mərhələdən ibarət müsabiqədə hər mərhələdən 3 nəfər fəal oxucu final mərhələsində iştirak üçün seçilib. Final mərhələsindən sonra yanvarın 24-də qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə regional idarənin rəis müavini Validə Nabatova, idarənin baş məsləhətçisi, Tərtər rayonu üzrə nümayəndə Ceyhun İsmayılzadə layihənin əhəmiyyətindən, kitabların insan həyatında rolundan söz açaraq müasir informasiya texnologiyaları dövründə mütaliənin xüsusilə təşviq olunmasının vacibliyini vurğulayıblar.

Daha sonra qaliblər elan olunub. Müsabiqənin yekun nəticələrinə görə, şəhər 1 nömrəli məktəbin VIII sinif şagirdi Arzu Xanlarzadə I yerə, VI sinif şagirdi Nəzrin Kərimli II yerə, V sinif şagirdi Hüseyn Hüseynov III yerə layiq görülüb. Bərdə Regional Mədəniyyət İdarəsi tərəfindən qaliblərə fəxri fərmanlar, hədiyyələr, fərqlənən oxuculara isə sertifikatlar təqdim olunub.

# 900 günlük blokadadan 75 il sonra

Böyük Vətən müharibəsi illərində Leninqrad (indiki Sankt-Peterburq) şəhərinin düşmən blokadasından azad olunması münasibətilə Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində Rusiyanın hərbi qüdrətini əks etdirən fotosərgi açılıb.



Sərgidə tanınmış fotoqraf Aleksandr Novikovun əsərləri nümayiş olunur.

Xatırladaq ki, yanvarın 27-si Rusiyanın Döyüş şöhrəti günü kimi qeyd olunur. Həmin gün Leninqrad şəhəri 900 günlük blokadadan azad edilib. Şəhərin azad edilməsi həm rus xalqı, həm də dünya ictimaiyyəti üçün çox böyük əhəmiyyətə malik olub. Bu il blokadanın aradan qaldırılmasının 75 ili tamam olur.

# Avropa Şurasında ölkəmizdəki internet mühitindən bəhs edilib

*əvvəli səh. 1-də*

"Bu gün Azərbaycanda kifayət qədər münbit media mühiti var. Azad internet mühitinin olması bunun ən bariz göstəricilərindəndir. İnternet istənilən anda istənilən yazını, istənilən fikri sosial şəbəkəyə çıxarmağa, paylaşmağa imkan verir. Sosial şəbəkə isə ən iti sürətli radio, televiziya, qəzet, informasiya agentliyi deməkdir. Ölkədə 40-a yaxın gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet var, 100-ə yaxın jurnal nəşr olunur. Eləcə də bölgələrdə 120-yə yaxın qəzet çıxır, 20 informasiya agentliyi, 23 mətbuat yayımı müəssisəsi mövcuddur", - deyə deputat bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda ölkə üzrə 11 telekanal fəaliyyət göstərir, 4 peyk televiziyası, 13 region, 17 kabel televiziyası, 2 internet televiziyası, 1 radio işləyir. Azərbaycanda bu gün 3 milyondan çox insan sosial şəbəkədən istifadə edir ki, bunların 1 milyon 800 mini Facebook-un payına düşür.

Azərbaycanda 40 internet provayderi var, internet trafikinin giriş-çıxışının həcmi 200 GB-dır. Azərbaycandan kütləvi informasiya mühitinin qısa statistik mənzərəsi belədir və əhalisi 10 milyon nəfər olan bir ölkə üçün bu rəqəmlər qənaətbəxş hesab edilib.

# "Nəsimi ili"nin elan olunması humanizm ideyalarına çağırışdır

Azərbaycan öz parlaq mədəniyyəti, zəngin mədəni, mənəvi dəyərləri ilə bəşəriyyətin mədəni irsinə böyük töhfələr verib.

Bu fikir Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan nümayəndə heyətinin üzvü Sahibə Qafarovanın çıxışında yer alıb.

2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunduğunu vurğulayan deputat qeyd edib ki, İmadəddin Nəsimi təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz adamlarından biridir. Onun əsərlərində humanizm, barış kimi ümumbəşəri ideyalar yüksək poetik şəkildə tərənnüm olunub. Onun yaradıcılığı nəinki Azərbaycan xalqının, o cümlədən, bütün bəşəriyyətin fəlsəfi fikir tarixində dərin izlər qoyub.

Nəsimi böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifidir.

Deputat diqqətə çatdırıb ki, Şərqin böyük filosofunun fikirləri Qərb mədəniyyətinin və ədəbiyyatının nümayəndələrinin humanizm fikirləri ilə bənzərdir. Azərbaycanda 2019-cu ilin "Nəsimi ili" elan olunması da böyük mütəfəkkirin təbliğ etdiyi ümumbəşəri dəyərlərin, humanizm ideyalarının yaşadılmasına bir çağırışdır.

# Uşaqların tərbiyəsində teatr metodlarından istifadə

Bakı Uşaq Teatrının direktoru, Əməkdar artist İntiqam Soltanın "Çətin tərbiyə olunan uşaqların tərbiyəsində teatr metodlarından istifadə" adlı metodik vəsaitinin təqdimatı olub.

Metodik vəsait spesifik xüsusiyyətlərə malik kollektivlərlə və yeniyetmələrlə işləmək üçün nəzərdə tutulub. Kitabda psixologiya və teatr, dram sənətinin vəhdətindən söhbət açılır, bu iki sahənin birgə imkanlarından gənclərin təlim-tərbiyə işlərində hər hansı çətinliyin aradan qaldırılması üçün faydalanma yollarından bəhs olunur. Vəsaitdən yeniyetmələrdən ibarət cəzaçəkmə müəssisələrində, eyni zamanda, fiziki və zehni cəhətdən zəif yeniyetmələrlə, xüsusi təmayüllü məktəblərdə çətin tərbiyə olunan uşaqlarla iş zamanı istifadə etmək mümkündür.



Kitab Təhsil Nazirliyinin keçirdiyi "Təhsildə inkişaf və innovasiyalar" üzrə üçüncü qrant müsabiqəsində qalib olan "Görünməz dərs" layihəsi çərçivəsində hazırlanıb.

Təqdimatda çıxış edən müəllif bildirib ki, Bakı Uşaq Teatrı davamlı olaraq uşaq evlərində, məktəblərdə tamaşalar göstərir və teatrın yarandığı gündən etibarən topladığı təcrübələr məhz bu kitabda öz əksini tapıb: "İşimizlə bağlı müxtəlif təhsil ocaqlarında, həbsxanalarda və sair məkanlarda uşaqlarla təmasda oluruq. Orada hiss etdim ki, belə bir metodik vəsaitə ehtiyac var".

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri, teatrşünas Vidadi Qafarov kitabın əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, insan üçün cəmiyyətdə lazım olan bütün keyfiyyətlər burada öz həllini tapıb. Kitabın sonunda isə müasir və klassik dramından nümunələr göstərilib.

## Asəf Zeynallının əsərləri səsləndirilib

Bakı Şəhər Mədəniyyət Baş idarəsinin 3 nömrəli Uşaq incəsənət məktəbində istedadlı bəstəkar Asəf Zeynallının (1909-1932) 110 illiyinə həsr olunmuş tədbir keçirilib.



Baş İdarədən bildirilib ki, tədbirdə bəstəkarın həyat və yaradıcılığından söhbət açılıb. Qeyd olunub ki, Asəf Zeynallı 23 il ömür sürməsinə baxmayaraq, milli musiqi sənətində silinməz iz qoyub. Musiqi tariximizdə ilk romans janrının yaranması onun adı ilə bağlıdır. O, həmçinin tamaşalara musiqi bəstələyib, xalq mahnılarını nota alıb. Görkəmli bəstəkar "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan musiqi tarixində uşaq musiqisi repertuarının əsasını qoyub.

Daha sonra şagirdlərin ifasında bəstəkarın əsərləri səsləndirilib, həyatından bəhs edən videoçarx nümayiş olunub.

## "Musiqidə yaşanan ömür"

Sumqayıt şəhər Mərkəzi Uşaq Kitabxanasında S.Rüstəmov adına Uşaq incəsənət məktəbi ilə birgə Şərqdə ilk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın (1924-2013) 95 illik yubileyi münasibətilə "Musiqidə yaşanan ömür" adlı musiqi gecəsi keçirilib.



Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə gerçəkləşən tədbirdə kitabxananın multimedia mütəxəssisi Leyla Mahmudova Ş.Axundovanın həyat və yaradıcılığı, S.Rüstəmov adına məktəbin müəlliməsi Vüsalə Həşimova sənətkarın vətən gözəllikləri və vətənpərvərlik mövzusunda mahnıları haqqında məlumat verib.

Sonra tədbir iştirakçıları bəstəkarın ömür yolundan bəhs edən videofilm izləyiblər. Musiqi gecəsi S.Rüstəmov adına Uşaq incəsənət məktəbinin müəllim və şagirdlərinin təqdim etdiyi konsert proqramı ilə davam edib. Müəllimlər Faiq Şıxbabayev (tar), Zərifə Qurbanova (kamança) və Kamran Qədəşovun (nağara) müşayiəti ilə Rövşanə Əliyevanın ifasında "Nədən oldu", Zərifə Zərbəliyevanın ifasında "Mehriban olaq" mahnıları, Nihad Kamillinin tarda ifa etdiyi "Bayatı-Şiraz" muğamı maraqla qarşılanıb.

## "Eurovision-2019" üçün mahnı qəbuluna başlanılıb

İctimai Televiziya və Radio Yayımları Şirkətində bu ilin mayında İsrailin Təl-Əviv şəhərində keçiriləcək "Eurovision-2019" müsabiqəsində ölkəmizin iştirakı ilə bağlı milli seçim turu üçün mahnı qəbuluna başlanılıb.




Müsabiqənin milli yayımçısı olan İctimai Televiziya mahnı seçiminə dair şərtləri də açıqlayıb. Söz yazarları və bəstəkarlar müsabiqə üçün musiqi və mətni "MP3" versiyasında təqdim etməlidirlər. Mahnının xronometrajı "Eurovision" mahnı müsabiqəsinin təşkilatçısı – Avropa Yayımları Birliyinin şərtlərinə uyğun şəkildə maksimum 3 dəqiqə təşkil etməlidir. Seçim üçün 2018-ci il sentyabrın 1-dən əvvəl ictimaiyyətdə, eləcə də rəsmi olaraq hər hansı mediada (televiziya, radio və ya internet resursları) yayımlanmayan mahnılar qəbul olunur.

Seçim turuna təqdim edilən mahnı digər musiqiçilərin "cover" mahnıları ola bilməz, həm musiqi, həm də mahnıda musiqi alətlərinin istifadəsi orijinal olmalıdır.

Müsabiqə üçün təqdim olunan mahnıların hansı müğənninin ifasında səsləndirilməsi seçimi yalnız "Eurovision"un rəsmi yayımçısı İctimai Televiziya və Radio Yayımları Şirkətinə məxsusdur.

Mahnı seçimində iştirak etmək istəyənlər ərizələrini fevralın 7-dək eurovision2019@gmail.com ünvanına göndərə bilərlər.

## Braziliyalı müəllifin Azərbaycanda multikulturalizm haqqında kitabı




Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) və ölkəmizin Braziliyadakı səfirliyinin dəstəyi ilə Braziliya Universitetinin professoru xanım Leila Bijosun müəllifi olduğu "Azərbaycanın dövlət siyasətində multikulturalizmin rolu" mövzusunda kitab çapdan çıxıb. Azərbaycanın Braziliyadakı səfirliyində kitabın təqdimatı keçirilib.

Xarici İşlər Nazirliyindən bildiriblər ki, ingilis və portuqal dillərində nəşr edilən kitabda Azərbaycanın multikulturalizm ənənələrinin tarixi kökləri barədə məlumat verilir, müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə sülh və dostluq şəraitində yaşaması haqqında nümunələr göstərilir, Azərbaycanda multikulturalizmlə bağlı həyata keçirilən dövlət siyasəti və qanunvericilik bazası təsvir olunur. Kitabda Azərbaycanın ev sahibliyi etdiyi multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı beynəlxalq səviyyəli tədbirlərin əhəmiyyəti haqqında danışılır.

Kitabda, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs olunur. Müəllif Azərbaycanın təbliğ etdiyi multikulturalizm ideyalarının ölkə daxilində, o cümlədən regionda və dünyada sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət etdiyini qeyd edir, buna baxmayaraq, qonşu Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlamasını sülhə və təhlükəsizliyə təhdid kimi qiymətləndirir.

# "Qış kaleydoskopu"

### "Gənclərə dəstək" layihəsində ilin ilk konserti maraqla qarşılandı

Mədəniyyət Nazirliyinin dəstəyi, "Mədəniyyət" kanalı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə gerçəkləşən "Gənclərə dəstək" layihəsi davam edir. Gənc musiqiçilərin iştirakı ilə konsert proqramları təşkil edilir, onların istedad və qabiliyyəti ictimaiyyətə təqdim olunur.





Layihə üzrə bu ilin ilk konsert proqramı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında reallaşdı.

Yanvarın 23-də təşkil olunan konsert proqramı "Qış kaleydoskopu" adlanırdı.

Gecədə Fikrət Əmirovun "Rəqs", Tofiq Quliyevin "Sevinc mahnısı", Yohann Sebastian Baxın "Polonez", Robert Şumanın "Cəsur atlı", "Melodiya", Bela Kovaçın "Şalom", Samuel Maykaparın "Postuşok", Yohannes Bramsın "Rapsodiya" və başqa əsərlər səsləndirildi.

Konsert proqramında respublika və beynəlxalq müsabiqələr laureatları Fuad Babayev, Əsmər Alxasova, Xanım Quluzadə, Ayan Bəkirzadə (hamısı piano), Zəminə Nurullayeva (vokal), Asim Həsənzadə (klarnet), Cabir Əliyev (truba) və başqaları çıxış etdilər. Bir-birindən rəngarəng ifalar maraqla qarşılandı.

Qeyd edək ki, "Gənclərə dəstək" layihəsi çərçivəsində ötən il 20-dən artıq konsert proqramı təqdim edilib.

**Fariz HÜSEYNOV**

# İsveçrəli və azərbaycanlı fotoqrafların birgə sərgisi

### "Yustistalda pendir bölüşdürülməsi" və "Sənətkarlıq ustaları"





Yanvarın 23-də Müasir İncəsənət Muzeyində isveçrəli fotoqraf Sedrik Kristofer Merklinin "Yustistalda pendir bölüşdürülməsi" və azərbaycanlı fotoqraf Elmar Mustafazadənin "Sənətkarlıq ustaları" adlı fotosərgiləri açılıb.

Tədbir İsveçrənin Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə reallaşıb.

İsveçrə səfiri Filip Ştalder çıxış edərək iki ölkə arasında mədəni müstəvidə inkişaf edən münasibətlərdən söz açıb. Bildirib ki, bu ay ölkələrimiz arasında diplomatik əlaqələr baxımından məhsuldar ay olub.

Sərgi ilə bağlı fikirlərini bölüşən diplomat deyib ki, o, bu tədbiri təkcə yaradıcılıq baxımından deyil, həm də Azərbaycan və İsveçrə foto rəssamlarını bir araya gətirməsi baxımından əhəmiyyətlidir. Səfir sərginin Müasir İncəsənət Muzeyi ilə ilk əməkdaşlıq layihəsi olduğunu deyib və muzeyin rəhbərliyinə minnətdarlığını bildirib.

Tədbirdə hər iki fotoqraf çıxış edərək sərgi haqqında məlumat verib, göstərilən dəstəyə görə təşəkkür ediblər.

Sonra qonaqlar fotolarla tanış olublar. Sərgi fevralın 5-dək davam edəcək.

## "Artım"da "Perpendikulyar həqiqətlər"

"Artım" layihə məkanı yanvarın 31-də "Perpendikulyar həqiqətlər" adlı sərgini təqdim edəcək.

"Artım rooms" layihəsinin üçüncü sərgisində rəssamlar Samir Ələkbərli, Vüsal Əhmədov, Aytən Qəribli, Şeyda Allahverdiyeva, Murad Əkbərli, Günel Axundlu və dramaturq İsmayıl İmanın (teatr rejissoru Tərlan Rəsulovla birgə) müstəqil layihələri nümayiş olunacaq.

Müəlliflər kvant fizikası qanunlarının təsiri, insanın daxili gücü və çətinlikləri haqda fərziyyələr, adət-ənənələrin interpretasiyası və region həyatının refleksiyası haqqında mövzulara fərqli baxış təklif edirlər.

Samir Ələkbərlinin "Kufikubizm" instalyasiyası Şirvanşahlar sarayı divanxanasının giriş divarında kufi xətti ilə "Allahu əkbər" əks olunmuş medalyona istinad edir. Dəqiq həndəsi hesablamalar əsasında yaradılan bu ornament, "Rubik kubu" vasitəsilə üçölçülü şəkildə təqdim olunur.

Rəssam Murad Əkbərlinin ekspressionistik tabloları ayrı-ayrılıqda bir hekayədir. Onun "Leyli və Məcnun" instalyasiyası Nizami Gəncəvinin eyniadlı poemasına olan müasir alleqoriyadır.

Vüsal Əhmədovun "Atalar üçdən deyib" instalyasiyası tamaşaçı qarşısında fəlsəfi suallar qoyaraq, indiki zamanın gələcəyin ən ideal formasına vizual keçidini nümayiş etdirməyə çalışır.

Aytən Qəribli və Şeyda Allahverdiyevanın birgə yaratdıqları "İncə xətt" interaktiv instalyasiya isə kvant fizikası qanunlarına əsaslanaraq gələcəyin keçmişə necə təsir etməsini vurğulayır.

İsmayıl İmanın "Əlaltı vasitələrlə səni necə xoşbəxt etməli" performansı baş qəhrəmanın bir neçə monoloqu üzərində qurulub. Tamaşanın əsas mahiyyəti müasir insanın "təcridolma" üsullarını araşdırır. Həmçinin perfomans zamanı qəhrəmanlar tamaşaçılarla birgə art obyekt yaradacaqlar. Quruluşun rejissoru Tərlan Rəsulovdur.

Günel Axundlunun "Mənbə" videoinstalyasiyası insan şüurunun gücünü dörd ünsür vasitəsilə açıqlamağa çalışır.

# Uşaq ədəbiyyatı sahəsində əməkdaşlıq

Bakıda səfərdə olan Türkiyənin Uşaq və Gənclik Ədəbiyyatı Yazarlar Birliyinin müdiri Bican Veysəl Yıldız AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ayrı-ayrı şöbələrin fəaliyyəti ilə tanış olub.

AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli ilə görüşdə qonağa burada aparılan elmi tədqiqatlar, əldə edilmiş nailiyyətlər haqqında məlumat verilib.

Azərbaycan-Türkiyə ədəbi və mədəni əlaqələri müstəvisində uşaq ədəbiyyatının müxtəlif problemləri, qarşılıqlı informasiya mübadiləsi və əməkdaşlıq məsələləri müzakirə edilib.



Görüşdə Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini Aygün Bağırlı iştirak edib.

# Folklor sahəsində elmi tədqiqatlara dair müzakirələr

AMEA-nın Folklor İnstitutunun Elmi şurasının növbəti iclası keçirilib. İnstitutun direktoru, akademik Muxtar İmanov 2018-ci ildə görülmüş işlər, builki fəaliyyət istiqamətləri barədə danışıb.

Elmi katib, filologiya üzrə fəlsəfə doktoru Elçin Abbasov institutun elmlər doktorluğu hazırlığı üzrə doktorantura və dissertanturasına, fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbulun nəticələri barədə məlumat verib.

Sonra institutun Musiqi folkloru şöbəsinin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Kəmalə Atakişiyeva "Cəlili" aşıq havasının təhlili" mövzusunda məruzə edib.

İclasda "Dədə Qorqud" jurnalının fəaliyyəti barədə məsələyə də baxılıb. Jurnalın ildə 4 dəfə nəşr olunması, ingilis və rus dillərində məqalələrin çapına icazə verilməsi qərara alınıb.

## Dilçiliklə bağlı tədqiqatlar nəşr olunub

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təsisçisi olduğu "Tədqiqlər" jurnalının 2018-ci il üçün sonuncu nömrəsi çapdan çıxıb.

İnstitutdan bildirilib ki, jurnalda Prezident İlham Əliyevin 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanının əhəmiyyətindən bəhs edilir.

Məcmuənin bu nömrəsində müasir Azərbaycan dili, dil nəzəriyyəsi, mətn sintaksisi və türk dillərinin tədqiqinə aid məqalələr verilib.

"Tədqiqlər" jurnalı ildə dörd dəfə, üç aydan bir nəşr olunur.

Yeddi not

# İllərin sevilən nəğməsi

Hər birimizin hələ uşaqlıqdan yaddaşımıza hopan sevimli melodiyaları olur. Ötən əsrin 60-cı illərində balacaların sevimli qış bayramında - Yeni ildə onlara sevinc bəxş edən bir musiqi yarandı. O mahnı ki, bütün uşaqların, hətta böyüklərin də dilində əzbər oldu.

*Süd kimi ağ qar ilə,*
*Çoxlu-çoxlu bar ilə,*
*Qış ilə, bahar ilə*
*Yeni il gəldi,*
*Yeni il gəldi.*
*Neçə nübar ilə,*
*Yeni il gəldi...*

Bəs kim idi bu mahnının müəllifləri və necə yaranmışdı bu nəğmə?

"Yeddi not" rubrikamızın ilk "qonağı" 60-dan çox yaşı olan "Yeni il gəldi" mahnısıdır.

1960-cı ildə, Yeni il şənliyi ərəfəsində Azərbaycan Dövlət Televiziya və Radiosunun o vaxt təzə (iki il öncə) yaranmış "Bənövşə" uşaq xoru üçün bəstəkar Musa Mirzəyev sözləri Hikmət Ziyaya məxsus olan "Yeni il gəldi" adlı mahnı bəstələyir. Efirdə ilk dəfə səsləndikdən sonra uğurlu tale yaşayan mahnılardan birinə çevrilir. Bu mahnı təkcə Yeni ili deyil, ümumilikdə qışın gəlişini, ağ fəsli assosiasiya edirdi.



Musa Mirzəyev bu mahnını bəstələyəndə 27 yaşı var idi. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında dahi bəstəkar və pedaqoq Qara Qarayevdən dərs alan M.Mirzəyevin yaradıcılığında sonradan simfonik və kamera musiqisi janrlarında yazılmış əsərlər üstünlük təşkil etsə də, o, gənc yaşlarında da mahnı janrına da müraciət edirdi. Bəstəkar bir müsahibəsində mahnı janrında ən çox müraciət etdiyi müəllifin məhz şair Hikmət Ziya olduğunu vurğulamışdı. Şair bu şeiri bəstəkara təqdim etməsəydi, yəqin ki, bu mahnı da yaranmayacaqdı. Daha çox təmsil ustası kimi tanınan şairin uşaq şeirləri də böyük maraqla oxunur.

Bəstəkar mahnının yaranma tarixi ilə bağlı xatirələrində deyir: "Mahnı uzun müddət bədii şuradan keçə bilmədi. O vaxt radioda işləyirdim və qış fəslinə aid çoxsaylı mahnılar yazılmışdı. Bir neçə il keçdikdən sonra mahnı bədii şura tərəfindən təsdiqləndi və uşaq xoruna ifa edilməsi üçün icazə verildi. Mahnı elə ilk səslənmədən öz melodikliyi, uşaq ruhuna yaxınlığı ilə digər mahnılardan seçildi".

Təsadüfi deyil ki, bu gün biz yaşı 50-ni keçmiş hər bir insandan Yeni il, yaxud qış fəslinə aid mahnı oxu desək, böyük əksəriyyət ilk olaraq məhz bu nəğməni ifa edəcək. Mahnının ilk lent yazısı fondda saxlanılmayıb. Yalnız 1965-ci ildə bəstəkarın öz müşayiəti ilə "Bənövşə" uşaq xoru və solist Gülnarə Həşimovanın ifasında mahnı lentə alınır və o videoyazı bu günə kimi Azərbaycan Televiziyasının "qızıl fond"undadır.

Vaxtilə "Bənövşə" uşaq xorunda oxuyan və bu gün tanınmış simalar var ki, onların bir çoxu bu mahnının ifaçıları olmaq imkanı qazanıblar. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası, Əməkdar artist Şəfəq Əliyeva, müğənni, Əməkdar artist Firuzə İbadova, Xalq artisti Azərin və estrada müğənnisi Elnarə bu mahnını sevə-sevə ifa edərək öz repertuarlarında yaşadırlar. Hazırda Yeni il şənliklərində bu mahnı əsas musiqilərdən biri kimi səsləndirilir.

Təəssüf ki, bu gün uşaq mahnıları yazılmır, yaxud bəstələnirsə, populyarlıq qazana bilmir. Doğrudur, uşaq mahnısı yazmaq elə də asan deyil. Bir də illərdir populyarlığını itirməyən mahnılar bəstəkarın yazdığı notları dəyişməmək şərti ilə, ruhu zədələnməməklə ifa olunmalıdır.

Hər ilin son ongünlüyü və yeni ilin ilk bir ayı ərzində tez-tez səslənən "Yeni il gəldi" mahnısının əbədi yaşayacağı şübhəsizdir. Çünki yenə qış gələcək, "süd kimi ağ" örpəyini torpağa sərəcək. Xüsusilə də balacalar "sevinclə gülə-gülə" qarda əylənəcəklər. Elə böyüklər də. Axı yaşından asılı olmayaraq, hər kəsin qəlbində bir uşaq yaşayır...

**Lalə AZƏRİ**

# "Zirvəyə doğru"

## Təbrizli və bakılı musiqiçilərin birgə yaradıcılıq məhsulu

*əvvəli səh. 1-də*

Görkəmli vokalçının vəfatından çox kədərləndiyini deyən Məsud Barış onunla başladığı işi yarımçıq qoymayacağına və vokal sənətinə tam yiyələnəcəyinə söz verib: "Elə bu istəklə də Bakıda Azərbaycan Dövlət Konservatoriyasında klassik vokal sənəti üzrə təhsil aldım, görkəmli pedaqoqlardan dərs alaraq sənətin sirlərinə yiyələndim. Əlbəttə ki, yüksək təhsil görmədən peşəkar səviyyəyə yüksəlmək mümkünsüzdür. Başda dahi Üzeyir Hacıbəyli olmaqla, demək olar ki, bütün klassik bəstəkarların yaradıcılığından bəhrələnməyə çalışıram. Xüsusilə, Qara Qarayevin yaradıcılığını özüm üçün təməl hesab edirəm. Bəlkə də bunun nəticəsidir ki, yaradıcılığımda digər janrlarla yanaşı, klassik əsərlər də mühüm yer tutur".

"Mən klassik musiqi təhsili almışam. Amma cəmiyyətdə pop və rok musiqisi çox sevilir. Çalışıram ki, klassik rokun sintezindən elə bir musiqi yaransın ki, həm gənclərin zövqünü oxşasın, həm



də milli üslubu insanlara çatdıra bilək",- deyə o vurğulayıb.

Təbrizdə rəhbərlik etdiyi musiqi məktəbində 300-dən çox şagirdin təhsil aldığını söyləyən musiqiçi deyib: "İranda musiqi təhsili almağa böyük maraq var. Məktəbdə gənclərlə yanaşı, yuxarı yaşda olan tələbələr də var. Klassik, eləcə də Azərbaycan və İran musiqisini təxminən 30 müəllim tədris edir. Pedaqoqların əksəriyyətinin peşəkar musiqiçilər olması gələcəkdə tələbələrin arasından çoxlu istedadlar yetişəcəyinə ümid yaradır".

Məsud Barış bədii rəhbəri olduğu "Barış" etno-rok musiqi qrupu barədə də məlumat verib. Qrup təkcə İranda deyil, Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrində də populyarlıq qazanıb. O, ABŞ-da, Virciniya ştatında və San-Fransiskoda da konsert proqramı ilə çıxış edib. Qrupun Türkiyənin Ankara, İstanbul və digər şəhərlərində konsertləri nəzərdə tutulur.

Ümumilikdə 50-dən çox əsərin müəllifi olan Məsud Barışın musiqi albomlarına həm simfonik, həm də simli orkestr, tamaşa, simli kvartet, ansambllar, solo alətlər üçün əsər və mahnılar daxildir. Bəstələri Bakıda "Gəncliyin səsi" incəsənət festivalında, ABŞ-ın Texas ştatında, eləcə də Vyana, Budapeşt, Moskva, İstanbul, Tehran və digər şəhərlərdə səslənib.

Təqdimatı keçiriləcək diskin müəlliflərindən biri Tural Məmmədli musiqilərin ölkəmizdə diskə yazıldığını və bədii rəhbəri olduğu "Etno-klass" instrumental ansamblının istedadlı musiqiçilərinin müşayiəti ilə ərsəyə gəldiyini söyləyib. O deyib: "Biz birgə yaradıcılıq məhsulu olan əsərləri geniş musiqisevərlər auditoriyasına təqdim etmək istəyirik. Hazırda növbəti albom üzərində işləyirik. Həmçinin Bakıda tamam yeni və orijinal formatda konsert verməyi düşünürük".

Qeyd edək ki, Tural Məmmədli ilə Məsud Barışın daha bir uğurlu layihəsi Təbrizin 2018-ci il "İslam ölkələrinin turizm paytaxtı" seçilməsindən sonra həyata keçib. Təbrizdə keçirilən təntənəli açılış mərasimində səslənən himnin müəllifi Tural Məmmədli olub.

# "Həyatdan da artıq"

## Zurab Sereteli yubiley sərgisini Bakıda da təqdim etməyi planlaşdırır

Böyük Britaniyanın paytaxtında Rusiya Rəssamlıq Akademiyasının prezidenti, SSRİ Xalq rəssamı, tanınmış heykəltəraş Zurab Seretelinin yaradıcılığına həsr edilmiş sərgi açılıb. Londondakı "Saatchi Gallery"nin bir neçə zalında rəssamın 100-dək rəsm, heykəltəraşlıq əsərləri təqdim edilir.

"Həyatdan da artıq" adlanan ilk böyük retrospektiv sərgi Seretelinin 85 illik yubileyinə həsr edilib. Ekspozisiyada sənətkarın yaradıcılıq karyerasının məcmusu, o cümlədən onun Mark Şaqal, Pablo Pikasso və Robert Rauşenberq kimi rəssamlarla görüşlərinin təsiri altında yaradılan əsərləri nümayiş etdirilir. Sərgi ziyarətçilərinin, həmçinin Z.Seretelinin həyatına həsr edilmiş arxiv videolarını izləmək imkanı da olacaq.

"Saatchi Gallery"də sərgi fevralın 17-dək davam edəcək. Müəllifin yubileyinə həsr edilən fərdi sərgilərin bu il Bakı, Paris və Lixtenşteyndə də keçiriləcəyi planlaşdırılıb.

1934-cü ildə Tbilisidə doğulan Z.Sereteli 1958-ci ildə Tbilisi Rəssamlıq Akademiyasını bitirib. O, tunc, daş, şüşə, ağac, mozaika ilə işləməyi öyrənərək 1960-cı illərdən başlayaraq iri sifarişlər qəbul etməyə başlayır. Z.Seretelinin əl işləri əvvəlcə SSRİ-də, daha sonra xaricdə - London, Paris, Roma, Nyu-York, Tokioda yayılıb.

1997-ci ildə Rusiya Rəssamlıq Akademiyasının prezidenti seçilib. 2001-ci ildə Moskvada Rusiya Rəssamlıq Akademiyasının bir hissəsi olan Zurab Sereteli İncəsənət Qalereyası açılıb. 2012-ci ildə isə rəssam Tbilisidə Müasir İncəsənət Muzeyini yaradıb.

Türk dünyası

# Astana ulduzunu Roma alqışlayır



"Astana Opera" teatrının balet truppasının İspaniya və İtaliya qastrolundan sonra Qazaxıstan balet məktəbi daha bir uğurla Avropa sənətsevərlərini heyran edib.

Yanvarın 20-də və 21-də Romada, "Auditorium Parco della Musica" konsert kompleksinin "Santa Cecilia Hall" salonunun səhnəsində "Les Étoiles" layihəsi çərçivəsində "Astana Opera"nın balet artisti Bahtiyar Adamjan dünya balet ulduzları ilə eyni səhnəni paylaşıb. "La Skala" teatrının prima balerinası Nikoletta Manni ilə "Cavan və Ölüm" baletində titul partiyalarından birini – Cavanı ifa edib. Bir neçə beynəlxalq müsabiqənin Qran-pri mükafatçısı olan Bahtiyar "Don Kixot" baletindən pa-de-deni, Macarıstan Dövlət Opera Teatrının priması Tatyana Melnik ilə S.Puninin "Esmeralda" baletindən Diana və Akteonun duetini ifa edib.

XX əsrin görkəmli balerinası Marqo Fonteynin 100 illik yubileyinə həsr edilmiş konsertdə London Kral Teatrının, Rusiyanın Böyük, Mariinsk və Mixaylovsk teatrlarının, Amerika Balet Teatrının, Berlin Dövlət Baletinin aparıcı artistləri çıxış ediblər.

# "Ağacın nəğməsi" Dəkkədə "Ən yaxşı film" oldu




Banqladeşin paytaxtı Dəkkədə başa çatmış Beynəlxalq kino forumunda qırğız kinematoqrafçılarının istehsal etdiyi "Ağacın nəğməsi" ("Darak ırı") filmi "Asiya filmləri" əsas müsabiqə proqramında "Ən yaxşı film" nominasiyasında qalib gəlib.

Rejissor Aybek Dayırbekovun filmini İlyas Kançan (Banqladeş), Yasi Kvin (Çin), Fransua Dartemir (Fransa), Maqnus Mayer Arnesen (Norveç) və Yovan Markoviç (Serbiya) kimi dünya kinematoqrafının ünlü isimlərinin daxil olduğu münsiflər heyəti bu mükafata layiq bilib.

Dəkkə festivalında Qırğızıstandan beş film iştirak edib. "Qadın rejissorların filmləri" seksiyasında Yelizaveta Stişovanın "Süleyman dağı" və Çolponay Borubayevanın "Ömür", "Mənəviyyat haqqında filmlər" bölməsində Ayzadə Alımbek qızının "Özək", "Qısametrajlı və müstəqil filmlər"də Asel Çotkarayevanın çəkdiyi "Mələk" nümayiş olunub.

# Ravşana - rus kinosunun Şərq ulduzu

O bizim alışdığımız, qıyıqgözlü, yumrusifət Orta Asiya gözəllərinə heç bənzəmir. Tanımayanlara Ravşana Kurkovanın siması daha çox hind, yaxud Pakistan əsilli Avropa qızını xatırladır: həddən artıq incə üz cizgiləri, qarabuğdayı bəniz, iri qara gözlər və xəsisliklə paylanan xəfif təbəssüm. Diqqətlə baxanda qara gözlərinin içindəki şıltaqlıq qığılcımlarını görmək olar.

Bu gün Rusiyanın kino və serial ulduzu, bir neçə geyim və kosmetika brendinin siması kimi tanıdığımız Ravşana Kurkova özbək qızıdır. 1980-ci ildə Daşkənddə sənətkar ailəsində dünyaya gəlib. Atası Bahram Matçanov "İlhom" teatrının aktyoru, anası Rano Kubayeva kinoaktrisa və rejissor, dayısı Rauf Kubayev rejissor və ssenaristdir.

Ravşana uşaqlıqdan atası ilə teatrda, anası ilə də çəkiliş meydançasında vaxt keçirməyi xoşlayıb, 12 yaşında kinoya çəkilib.

Bir qədər sonra isə valideynləri ayrılırlar, Ravşana anası ilə Moskvaya gedir. Burada musiqi məktəbində, daha sonra isə anasının istəyi ilə gələcəkdə "daha ciddi işlə" məşğul olmaq üçün Britaniya liseyində təhsil alır. Pedaqoji universitetin tələbəsi ikən Kinematoqrafiya İnstitutunun nəzdindəki rejissor kurslarında, Şepkin adına Teatr Məktəbindəki aktyorluq kurslarında dinləyici kimi iştirak edir.



1998-ci ildə anası ilə birlikdə "Ad günün mübarək!" filmində çəkildikdən sonra rejissorlar Ravşanaya diqqət yetirirlər. 2007-ci ildə kəskin süjetli "Üç qız" komediyasında baş rollardan birini oynayaraq "Yeni kino. 21-ci əsr" beynəlxalq kinofestivalında ən yaxşı qadın roluna görə mükafat alır. 29 yaşında ikən "Barvixa" serialında oynadığı məktəbli Anjela, 2017-ci ildə ekrana çıxan "Bizim həyatdəsə..." serialında yaratdığı miqrant dalandar Mövludə rolu Ravşanaya postsovet məkanında şöhrət qazandırıb.

Ravşana Kurkova bu gün Rusiya kinematoqrafında davamlı çəkilən aktrisalardandır. O, antrepriz teatr tamaşalarında da çıxış edir, klip və reklam çəkilişlərində iştirakdan boyun qaçırmır. Aktrisanın uca boyu (180 sm), az çəkisi (50 kq) qrimsiz də istənilən mənanı və yaşı öz simasında göstərmək məharəti ona özünü model kimi də sınamaq imkanı verir.

Ravşana deyir: "Mən ağlım və qəlbimlə sabaha yüyürərək yaşamağa tələsmirəm, xəsisliklə zamanı dayandırmağa cəhd etmirəm, onun ötüb keçdiyinə heyfsilənmirəm. Zaman hər yerə mənimlə qoşa gedir, məni insanlarla tanış edir, təcrübəsini, biliyini mənə verir. Həmişə özümə deyirəm ki, sənin bir də 20, 23, 27, 35 yaşın olmayacaq. Həyatının bu ilini həzz alaraq, sevinclə yaşa, onu hiss et, vaxtını qüssə-kədərə yox, sənə xoş gələn şeylərə həsr et".

# Tatar bülbülü əbədi susdu...

Rusiya və Tatarıstanın Xalq artisti, müğənni İlham Şakirov 84 yaşında vəfat edib. Q.Tukay adına Tatarıstan Dövlət Filarmoniyasının yaydığı rəsmi nekroloqda deyilir ki, bütün ömrünü milli incəsənətin təbliğinə həsr etmiş İlham Şakirovun vəfatı musiqi ictimaiyyəti üçün əvəzolunmaz itkidir. Ömrünün 59 ilini tatar xalq mahnılarının təbliğinə həsr etmiş İ.Şakirov bariton səsli əfsanəvi müğənni kimi tanınıb.

Azərbaycanın Xalq artisti, bəstəkar, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu da böyük müğənninin doğmalarına başsağlığı verib. O, İlham Şakirovu şəxsən tanımaq xoşbəxtliyinə sahib olduğunu vurğulayaraq bildirib ki, İlham Şakirov təkcə tatar folklorunun bilicisi deyildi, həm də bir çox xalqların mahnılarını böyük məharətlə ifa edirdi: "Azərbaycan mahnılarını necə bir şövqlə oxuduğu yadımdadır. Onun bütün həyatı mədəniyyətə, incəsənətə xidmətə həsr olunmuşdu və saysız-hesabsız minnətdar dinləyiciləri onu heç vaxt unutmayacaqlar".



Tatarıstan Prezidenti Rüstəm Minnixanov "Kazan Expo" sərgi kompleksinin ərazisində tikilən böyük konsert salonuna İlham Şakirovun adının verilməsini təklif edib.

**Hazırladı: GÜLCAHAN**

# “Şəhid şəhər”

## Xocalı soyqırımının ildönümü ilə bağlı uşaq rəsm müsabiqəsi




Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş “Şəhid şəhər” adlı uşaq rəsm müsabiqəsi elan olunub.

Müsabiqə Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

15 yaşadək uşaqların qatıla biləcəyi müsabiqənin son qeydiyyat tarixi fevralın 8-də bitir. İştirak etmək istəyənlər öz əl işlərini xsm.2016@mail.ru elektron ünvanına göndərə bilərlər. Mövzu və düzgün kompozisiyaya, uşaqların öz duyğu və düşüncələri ilə işlənmiş əsərlərə üstünlük veriləcək.

Müsabiqə iki turdan ibarət olacaq. Münsiflər heyətinin seçimi əsasında birinci turdan keçmiş əsərlər Xətai Sənət Mərkəzində təşkil ediləcək sərgidə nümayiş olunacaq. Sonda qaliblər diplom və təşəkkürnamə ilə təltif ediləcəklər.

# Tanınmış tarixçi-qafqazşünas Rudolf İvanov dünyasını dəyişib



Rusiyalı publisist, yazıçı, tarixçi-qafqazşünas, professor Rudolf İvanov ömrünün 88-ci ilində dünyasını dəyişib.

Rudolf Nikolayeviç İvanov 1931-ci il mayın 18-də Pyatiqorskda anadan olub. O, 27 kitabın, 200-dən çox məqalə və oçerkin müəllifidir. Bu əsərlərin böyük bir qismi Rusiya imperiyasının və Qafqazın tarixinə həsr edilib.

R.İvanovun qələminin məhsulları arasında “Ölüm-dirim savaşı. Açılmış arxivlər Nəriman Nərimanovun Azərbaycanda bolşevizm təhriflərinə qarşı mübarizəsinin sirlərini üzə çıxarır” kitabı xüsusi yer tutur. Bu nəşrdə 475 tarixi sənəd, o cümlədən Nərimanovun nadir nəşrlərdən seçilmiş məqalələri və nitqləri toplanıb.

R.İvanovun “Kəlbəli xan Naxçıvanski. Onun dövrü və irsi. Tarixi oçerklər” kitabı da böyük maraqla qarşılanıb.

Rudolf İvanov Rusiya Yazıçılar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin, Moskva Jurnalistlər İttifaqının üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun və Naxçıvan Dövlət Universitetinin fəxri doktoru olub. Azərbaycanın “Dostluq” ordeni ilə təltif edilib.

# “Nizami Gəncəvi haqqında hər şey”

## Özbəkistanda dahi Azərbaycan şairinə həsr olunmuş müsabiqə keçirilir

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində “Nizami Gəncəvi haqqında hər şey” adlı müsabiqə elan olunub.

Müsabiqə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti və universitet arasında imzalanmış 2019-cu il üçün iş planına uyğun olaraq keçirilir.

Respublika müsabiqəsi üzrə bir neçə nominasiya var: “Nizami əsərlərinin bilicisi”, “Bədahətən Nizami qəzəlləri”, “Nizami irsinin davamçılarının yaradıcılığı” və s.

Müsabiqədə tələbələrlə yanaşı Özbəkistan ali məktəblərinin müəllimləri, elmi işçiləri də iştirak edə bilərlər.

Münsiflər heyətində Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin alimləri, Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərliyi təmsil olunur.




Müsabiqənin üç şərti var: Nizami Gəncəvi irsinə dair dərin məzmunlu və geniş ədəbi təhlil aparmaqla yaradıcı inşa yazmaq; Nizami yaradıcılığı, dahi söz ustadının əsərləri əsasında sualları (Özbəkistanda Nizami irsini araşdıran alim və filosofların əsərləri üzrə) cavablandırmaq; Nizami Gəncəvinin bir qəzəlini söyləmək, onu təhlil etmək, bu barədə öz düşüncələrini bölüşmək.

“Nizami Gəncəvi haqqında hər şey” müsabiqəsi iki mərhələdə keçirilir. Birinci mərhələ fevral ayının sonuna qədər davam edəcək.

İkinci mərhələ mart ayının 21-də - Novruz bayramı tədbirində başa çatacaq.

İlk üç yerin sahibləri Azərbaycan Mədəniyyət Mərkəzinin xüsusi mükafatı, Nizami Gəncəvinin özbək dilinə tərcümə edilmiş kitab kolleksiyası və hər üç təşkilatın diplomları ilə təltif olunacaqlar.

# Bəhruz Kəngərlinin xatirəsi yad edilib

Azərbaycan milli rəsm sənətinin görkəmli simalarından olan Bəhruz Kəngərlinin (1892-1922) anadan olmasının 127-ci ildönümü (22 yanvar) münasibətilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər.



Ziyarət zamanı məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2001-ci il 22 may tarixli sərəncamı ilə yaradılıb. 2002-ci il iyunun 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, rəssamın Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilib. İlk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində nəşr edilib, sənətkarın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb. 2013-cü ildə Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina yenidən qurularaq istifadəyə verilib.

Bildirilib ki, 30 il ömür sürən Bəhruz Kəngərli zəngin irs qoyub, yeddi il yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, 2 minə qədər rəsm əsəri yaradıb. O, realist portret və mənzərə rəsm yaradıcılığının, Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla bədii sənət xəzinəmizə dəyərli nümunələr bəxş edib.

Muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə olunur. Həmçinin muzeyin saytı istənilən sənətsevərə ekspozisiya ilə tanış olmaq imkanı yaradır.

# Milli milyonçumuz

## Şəxsi evlər inşa edən ustadan xalqın evini tikən ustada, sər-səxavətilə Həcci daha da şərafətləndirən HACIya çevrilmiş Zeynalabdin Tağıyev…

Xalqın yaddaşında özünə əbədi heykəl ucaltmış bu “millət atası” sağlığında abidəsi qoyulan ilk azərbaycanlıdır: XIX əsrin sonlarında bu haqq-halal hacının qonağı olan Con Daltner adlı bir ingilis zadəganı onun mesenatlıq və maarifçilik fəaliyyətinə, milli və bəşəri düşüncələrinə o qədər heyran qalır ki, vətəninə qayıtdıqdan sonra İngiltərənin Edinburq şəhərində öz vəsaiti hesabına bu “dünyəvi qəlbli” “böyük Kişi”nin abidəsini ucaltdırır…

Təpədən-dırnağa milli-müsəlman olmuş bu aborigen neftxudanı Bakıdakı “vıssiy” rusların, xain millətçi ermənilərin, “adambəyənməz” yəhudilərin xeyriyyə cəmiyyətləri də özlərinə fəxri sədr seçmişdilər. Hansı ki bu sədr, Bakı və ətraf məkanlardakı göydələn “əndərun-birun” hasarlar içərisində “gül kimi” geriləməkdə olan fatma-tükəzbanların inkişafı üçün qızlar məktəbi tikdirmişdi və bu səbəbdən də xaricdə təhsil alıb qayıdan türk-müsəlman oğlanlar daha onların həmin məktəbi bitirəsi Vətən qızları ilə ailə quracaq və belə ailələr yavaş-yavaş inkişaf edib, bala-bala millətləşib, haçansa müstəqil Dövlət olacaqdılar!...

Deməli, həm də -

### Milliyyətçilik mesenatlığı...

Necə ki, Azərbaycanın XX əsr siyasi həyatında ayrıca “Tağıyev imza-izləri” vardır: 1905-ci ildə şəhər özünüidarə sahəsində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasının ləğvinə dair tədbirlər görülməsini təklif edib, 1864-cü il “Əsasnamə”sini Azərbaycan dilinə çevirtdirərək dərc etdirib, Güneyimizdə gedən milli azadlıq hərəkatına pul yardımı və silah göndərib, erməni terrorçularının vəhşiliklərinə cavab kimi yaradılmış “Difai” partiyasının təsisçilərindən olub, gizli fəaliyyət göstərən “Müsavat” partiyasına, 1918-ci ilin mart hadisələrində müsəlman müdafiə dəstələrinə maddi yardım və digər təminatlar göstərib, talan olunmuş kəndlərə İrandan ərzaq gətirdib.



1917-ci ilin aprelində Bakıda keçirilmiş Qafqaz müsəlmanları qurultayında fəxri qonaq kimi çıxış edən bu “fəxri müsəlman” qurultayın yaratdığı Milli fonda 50 min pul bağışlayıb. Cümhuriyyət dövründə müstəqil dövlətçilik mənafelərini dəstəkləyib, dövlət tədbirlərində iştirak edib, hökumət başçısı N.Yusifbəyliyə məktubunda maliyyə və iqtisadi siyasətlə bağlı mülahizələrini bildirib, tövsiyələr verib: “Mənim sizə müraciətim tacir və sənayeçinin şəxsi marağından deyil, səmimi vətənpərvərlik hissindən və dövlətin əsl siyasi müstəqilliyinin yalnız onun maliyyə və iqtisadi müstəqilliyi əsasında mümkünlüyünə dərin inamından irəli gəlir ki, bunsuz siyasi mənada azad vətəndaşlar özlərinin sənaye və ticarət baxımından daha güclü qonşularının quluna çevrilirlər”.

Hələ Şollar-Bakı su kəmərinin inşası üçün şəxsi vəsaitindən külli miqdarda pul ayırması, Balkan müharibəsi illərində türklərə pul yardımı göstərməsi, Dərbənddə qızlar üçün təhsil müəssisəsi tikdirməsi, 1902-ci il zəlzələsi zamanı şamaxılılara, illər uzunu Rusiyanın çoxmilyonlu müsəlman əhalisinə köməyini əsirgəməməsi, vəsaiti hesabına neçə-neçə istedadlı müəllifin kitablarını çap etdirməsi, neçələrinin xaricdə təhsil alması, əcnəbi ölkələrdə anadilli məktəblər açması, İ.Qaspıralının “Tərcüman” qəzetinə Qafqazdan abunələr (pulunu özü ödəməklə) təşkil etməsi də öz yerində!...

Vətən, xalq üçün etdiyi qəzet-kitaba sığmaz nələr-nəsnələrdən sonra bu xalqın aydınları: “Müsəlmanlardan bu qeyrətdə olanlarını görməmişiksə də, adlarını tarixdə oxuyur və düşünürük ki, millət yolunda can qoyanlar bizlərdə var imiş. Bu Zat möhtərəm bir zatdır, ruzidir - Allah bizlərə bəxşiş edibdir” (N.Nərimanov), “H.Z.Tağıyevin müsəlman milləti üçün etdiyi xidmətləri saymaq fikrinə düşüb, qəzetimizi bir ay ancaq bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik...” (H.Vəzirov) kimi fikirlər izhar edirdi.

### Və məncə...

atası Tağı kişi, doqquz yaşında anası ölmüş bu uşağı aparıb daşyonan ustanın yox, hər hansı bir alim, mühəndis və ya ustad aşığın yanında şəyird qoysaydı, o yenə elə həmin sənət-peşələrin lideri, fenomeni, dahisi olacaqdı. Amma xoşbəxtlikdən (həm də həmin sahələrdə dahilərimizin çoxluğu baxımından) tale onu ovaxtadək (və elə buvaxtadək) mükəmməl analoqu olmayan bu sahəyə – maddi-mənəvi milyonçuluq “nominasiyalı” dahilik düşərgəsinə gətirdi...

Bu ehtimal kimə qəribə görünsə, lütfən, bu müsəlmanın “Allahu-əkbər”in qurtardığı qəribliklərdə belə ucaltdığı məscidləri, mədəniyyət-maarif əhəmiyyətli imarətləri, “sol əlinin xəbəri olmadan” neçə-neçə əcnəbinin ehtiyaclarını qarşılayan sağ əlini xatırlasın.

Və... milli burjuaziya “gen”li bu Kişinin həmin o sağ (saf) ƏLİ öz əl-ayaqlarını müdafiəsinə qalxdıqları Qarabağ torpağında “əkib” qayıtmış Azərbaycan oğullarına yardım etməyən müqəyyəd milyon-milyardçıları“mız”ın başına...

### Bu böyük

millət qəyyumunun inşa etdirdiyi əzəmətli tikililər, məscidlər, yaratdığı müəssisələr, təsis etdiyi qəzet-jurnallar və s. oxucularımızın əksəriyyətinə məlum. Lakin bu böyük maarifpərvərin 300 min manat vəsaitlə (1897-1901) tikdirdiyi (bütün Zaqafqaziyada yeganə!) “Qızlar məktəbi”nin açılışına “namusumuz əldən gedər” deyə, böyük nadanlıq “istedad”ı ilə mane olmaq istəyənləri bir yerə



toplayıb, onlardan birinə dediyi sözlərdən bir parçanı mütləq qeyd etməliyəm: “Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir. İngilistana, Firəngistana gedib oxuyan cavanlarımız hərəsi qoluna bir arvad keçirib gətirir. Çünki bizim qızlarımızla məcazları tutmur. Əcnəbi arvadlardan doğulan uşaqlar isə bütün varidatımıza vərəsə çıxırlar.

Molla Əli Hacı Xəlil oğlu! Qulaq as! Sırağagün gecə iyirmi yaşlı ortancıl qızın ölümcül sancılandı, sən də Lopabığ Ambarsum həkimi gətizdirdin, qızı ölümdən qurtardı. İndi de görüm, Lopabığ Ambarsumun əvəzinə bir müsəlman arvad həkimi olsaydı, şəriətə hansı düz gələrdi?!. Mən bizə padşahlıqdan “vəhşi” deyiləndən sonra bu məktəbi yaratmaq qərarına gəldim. Narahat olmayın, bu məktəbdə dərs deyənlər zənən xeylaqları olacaq”...

O ki qaldı “padşahlıqdan “vəhşi” deyiləndən sonra” məsələsinə, bu söz Rusiya çarının tacqoyma mərasimində çırpılıbmış – şəxsi və milli qürur mücəssəməsi olan bu hacının üzünə; qonaqları bir-bir çara təqdim edən baş nazir, növbə (rusca bilmədiyini zənn etdiyi) hacıya çatanda: “Əlahəzrət, bu isə vəhşi bir xalqın nümayəndəsi Tağıyevdir” deyibmiş...

### Lakin!...

Azərbaycan millətini (əsarətində olan bütün xalqlar kimi) savadsız saxlamağa çalışan Rusiya imperiyası öz “siyasi iş”inin xatirinə (və bir az da millətin universal ağsaqqalına bütün Azərbaycan xalqının bəslədiyi sayğının qorxusundan) bu istehsalat-iqtisadiyyat nəhəngini, ibtidai təhsil belə görməmiş bu ağıl-fəhm akademikini həqiqi dövlət müşaviri seçməyə, II və III dərəcəli “Müqəddəs Stanislav ordeni”lə təltif etməyə məcbur olmuşdu!...

İki arvadı, sovet illərində biri qədirbilən insanların gizli ianəsinə möhtac olmuş iki qızı, biri intiharla, digəri xəstəlikdən ölmüş iki oğlu olmuş bu millət atası 1924-cü il sentyabrın 1-də vəfat edib. Xalqın aramsız-arasıkəsilməz vida izdihamı səbəbilə sentyabrın 4-də dəfn olunub. Asıb-kəsən bolşeviklərin ən iti dövrləri olmasına baxmayaraq, var-yatırının sayı-sanı bilinməyən bu maddi-mənəvi milyonçunun ehsanını “lüt-üryan əşxaslar” (şəxslər) verib. Sayıbilinməz mülkiyyəti içərisindən “yalnız birini seçmək” iznilə (bu da ki yeni hakimiyyət rəhbərlərindən N.Nərimanovun təkidli çabaları hesabına) götürdüyü bağında (Mərdəkan) dəfn edilib. Özü də vəsiyyətinə əsasən, hələ topdağıtmaz səltənət sahibiykən dünyanın vəfası haqda söhbətlərində “Allah istəsə, bu qədər var-dövlətimi əlimdən ala bilərmi” sualını “Əlbəttə, ala bilər! Buna görə də sən həmişə əbədi olanı düşün” cavabı vermiş axund Hacı Əbu Turabın ayaqları altında. Nə üçün? Bu sualın cavabını o özü verib: “Çünki onun ayağının bildiyini mənim başım bilmirmiş”...

Bəli, “dikiy xalq” onun dəfnini analoqsuz izdihamla qutlayır, ən kasıb insanlar belə yaxın-uzaq kəndlərdən yas mərasiminə misli görünməmiş çeşid və qədərdə “ehsani-ərzaq” gətirir. Haqq-ədalət “carçısı” yeni hakimiyyət isə (yenə Nərimanovun göstərişilə) “Kommunist” və “Bakinskiy raboçiy” qəzetlərində bir abzaslıq (bunu “bir abbasılıq” da oxumaq olar) nekroloq çap etdirir...

**Tahir ABBASLI**

# "Qarabağ" gecəsində "Gözəl Şuşa"

## Görkəmli bəstəkar Süleyman Ələsgərovun sevilən əsərləri səslənəcək



Fevralın 19-da Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı, professor Süleyman Ələsgərovun 95 illiyinə həsr olunmuş "Qarabağ" adlı ədəbi-bədii gecə keçiriləcək.

Əsərləri hər bir azərbaycanlının qəlbində əbədi iz qoyan, dahi Üzeyir Hacıbəyli məktəbinin layiqli davamçısı olan Süleyman Ələsgərov milli mədəniyyətimizə bənzərsiz musiqi əsərləri bəxş edib. Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının təşkilatçılığı ilə keçirilən konsertdə bəstəkarın musiqisevərlər arasında sevilən "Gözəl Şuşa", "Gözlə məni", "Xəyala dalarkən", "Düşüncə", "Bilsəm sən gəlirsən", "Neyləyərəm", "Gözləyirəm", "İlk xatirə" və digər mahnıları, romansları incəsənət ustalarının ifasında təqdim olunacaq.

Biletləri Heydər Əliyev Sarayının kassasından, şəhərin kassalarından, www.iticket.az saytından onlayn və "ASAN xidmət" mərkəzlərindən əldə etmək olar.

## Gənc rəssamların əsərləri sərgilənəcək

Fevralın 2-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda Gənclər gününə həsr edilmiş sərgi açılacaq.

Sərgi Gənclər və İdman Nazirliyi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə reallaşacaq. Sərgidə 150 gənc fırça ustasının 200-dən çox əsəri nümayiş olunacaq.

Ekspozisiyada müxtəlif janrlarda əsərlər yer alacaq. Sərgi dörd gün ziyarət üçün açıq olacaq.

# Növbəti mühazirə fotoqrafiya sənətinə həsr edilib




"YARAT" Müasir İncəsənət Məkanı yanvarın 30-da Səyyar Fotoqrafiya Muzeyi (Gürcüstan) ilə birgə açıq mühazirə təşkil edəcək. "YARAT" Müasir İncəsənət Mərkəzində reallaşacaq tədbir muzeyin Bakıda ilk layihəsidir.

Tədbir çərçivəsində regional və beynəlxalq səviyyədə tanınmış, eləcə də yaradıcılığa yeni başlayan fotoqrafların əsərlərinin slayd-şousu nümayiş ediləcək. Tbilisi Fotoqrafiya və Multimedia Texnologiyaları Muzeyinin həmtəsisçisi və bədii rəhbəri Nestan Nijaradzenin "Cənubi Qafqazda fotoqrafiya sənəti və Avropa mədəni innovasiyaları ilə əlaqə" adlı mühazirəsi dinləniləcək.

Səyyar Fotoqrafiya Muzeyi Gürcüstanda və Cənubi Qafqazda fotoqrafiya sənətinin pioneri sayılan Aleksandr Roinaşvili tərəfindən yaradılıb. XIX əsrin ikinci yarısında səyyar muzey Gürcüstan və Rusiya şəhərlərinə səyahət edərək, hər kəsi öz zəngin kolleksiyası ilə tanış edirdi. İndiki dövrümüzdə muzey öz adət-ənənələrinə sadiq qalır, bununla yanaşı fotoqrafiya sənəti ilə bağlı ictimaiyyət üçün müxtəlif mühazirələr təşkil edir.

# Gənc Tamaşaçılar Teatrında "Tanrıya 14 məktub" hazırlanır

Gənc Tamaşaçılar Teatrında fransız dramaturqu Erik Emmanuel Şmidtin "Tanrıya 14 məktub" pyesi əsasında eyniadlı tamaşanın məşqlərinə başlanılıb.

Teatrın rejissoru, Əməkdar artist Nicat Kazımovun quruluş verdiyi tamaşanın səhnə tərtibatçısı Mustafa Mustafayev, xoreoqrafı Əməkdar artist Nailə Məmmədzadə, musiqi tərtibatçısı Şamxal Novruzludur. Rolları Anar Səfiyev, Nicat Kazımov, Qəmər Məmmədova, Zemfira Əbdülsəmədova, Ramil Məmmədov, Bəhram Həsənov və başqaları canlandıracaq.

Əsər hələ ki aktyorların iştirakı ilə masaarxası məşq mərhələsindədir. Hazırlıq prosesi barədə danışan rejissor Nicat Kazımov bu çoxqatlı əsərə müraciət edilməsinin məsuliyyət və çətinliyindən söz açıb: "Uzun müddətdir ki, Erik Emmanuel Şmidtin iki əsəri – "Müsyö İbrahim və Quran çiçəyi", "Oskar və çəhrayı dama, yaxud Tanrıya 14 məktub" pyesləri ətrafında düşünürdüm. Nəhayət, bu il "Tanrıya 14 məktub" əsərinə quruluş vermək qərarına gəldim və teatrın rəhbərliyi bu ideyanı dəstəklədi. Əsər monopyes olaraq qələmə alınsa da, biz bunu 14 aktyorla, bir qədər ayrı cür qurmağa qərar verdik. Tamaşanı bir az hərəkətli və



fərqli formada qurmaq niyyətindəyik. Musiqi tərtibatında Hans Zimmerin bir az ağır musiqiləri ilə yanaşı, fransız estradasından yüngül, ritmik, hətta romantik melodiyalara da müraciət etmişik. Ümid edirik ki, bu polifonik bir tamaşa olacaq və tamaşaçıların rəğbətini qazanacaq".

Tamaşanın premyerası mart ayına nəzərdə tutulub.

# Həyat və yaradıcılıq sevincinə həsrət

Əməkdar rəssam Ələkbər Rzaquliyev. Təsviri sənətin qrafika sahəsində geniş şöhrət qazanan bu sənətkar zəngin yaradıcılığı ilə bərabər, tale kəmliyinə görə də müasirlərindən fərqlənib...

Ələkbər Ələsgər oğlu Rzaquliyev 1903-cü ildə Bakı şəhərində dünyaya göz açıb. Erkən çağlardan rəsm çəkməyə maraq göstərir. Babası onun rəssam olmaq arzusu barədə şəhərin axundu ilə söhbət edir. Axund şəkil çəkməyin dində qadağan olunduğunu desə də, Ələkbər fikrindən dönmür. 1925-ci ildə Moskvada Ali Bədii Texniki Emalatxanada təhsil alır. Bakıya qayıtdıqdan sonra yaradıcılığını davam etdirir. Əsərlərində çarizm dövrü Azərbaycan məişətinin xarakterik səhnələrinə geniş yer ayırır. "Azərbaycanlı qadın", "Pəhləvanlar", "Mollaxana" əsərləri maraqla qarşılanır.

Gənc Ələkbər xəyallarında yaradıcılıq planları qurarkən ölkədə acı yellər əsməyə başlayır. 1928-ci ildə "pantürkist ideyalarını yaymaq"da ittiham olunaraq həbs edilir. İyirmi beş il müddətinə azadlıqdan məhrum edilərək Sibirə göndərilir. Qürbət həyatı nə qədər ağır olsa da, onun iradəsini qıra bilmir. Bir müddət sonra onun barəsində yeni qərar verilir - vaxtından əvvəl azadlığa buraxılır. Bakıya gələn rəssam Sona adlı bir xanımla ailə qurur. Lakin doğma şəhərində rahat yaşayıb işləmək yenə ona qismət olmur. Yenidən həbs olunur və Solovki həbs düşərgəsinə (Rusiyanın şimalında, Ağ dənizdə Solovetsk adaları - red.) göndərilir. Ağır məşəqqətlərdən keçən rəssam möhkəm iradəsi və həyat eşqi ilə bu məhrumiyyətlərlə mübarizə aparır.

Qızı Ədilə xanım xatirələrində yazır: "1947-ci ilə qədər biz bir-birimizdən ayrı düşdük. Uzun illərin ayrılığından sonra, biz



bir daha yenidən görüşdük. Ancaq bir-birimizi tanımadıq. Atam bu pərişanlığa dözə bilməyib ağladı".

Sürgündən qayıtdıqdan sonra Ələkbər Rzaquliyev ailəsi ilə əvvəl Gəncəyə, sonra isə Şəkiyə köçməli olur. Şəkidə ipək kombinatında işə düzəlir. Eyni zamanda məktəbdə dərs deyir.

Ədilə xanımın xatirələrindən: "Bir dəfə evdə atam və babamla oturmuşdum. Bu vaxt bizə Bəhram adlı bir kişi gəldi. Sonra məlum oldu ki, o, Gəncə teatrında rejissor işləyir. Bəhram atama yaxınlaşıb onun ayaqlarına yıxıldı və dedi: "O illər üçün, o sözlər üçün məni bağışla!" Amma atam ona cavab verməyib, üzünü yana çevirdi. Babam bütün bunlara dözməyib atama dedi: "Ələkbər, görmürsən o, səndən üzr istəyir?" Atam cavabında dedi: "Yox, mən onu ömrümdə bağışlamaram, onun sözlərinə görə ömrümün, demək olar, yarısını sürgünlərdə keçirdim".

1949-cu ildə Ələkbər Rzaquliyev yenidən həbs edilir. Bu dəfə Altaya sürgün olunur. Burada Berta adlı alman xanımla ailə qurur. Onların Oqtay, Aydın adlı oğulları və Sevda adlı qızı dünyaya gəlir. O, Altaydan qızı Ədiləyə məktub yazaraq evləndiyi barədə ona məlumat verir. Bu addımı əziyyət çəkməmək, ölməmək və ailəsinə qovuşmaq üçün atdığını bildirir...

1953-cü ildə düşərgədə Stalinin ölüm xəbəri yayılır. Həyəcandan Ələkbərin dili tutulur, üç gün bir kəlmə də danışa bilmir. Nəhayət, 1956-cı ildə - repressiya qurbanlarının bəraət aldığı dövrdə Ələkbər Rzaquliyevə də Azərbaycanda yaşamağa icazə verilir.

İllərini sürgündə itirən rəssam gecəni gündüzə qatıb işləyir. Ağrı-acılarla dolu böyük bir dövrün yaddaşını tabloya köçürməyə can atır. 1963-cü ildə - 60 illik yubileyində ilk fərdi sərgisini təşkil edir. Bir il sonra Əməkdar rəssam adına layiq görülür.

Ələkbər Rzaquliyev yaradıcılığı boyu cəmi iki rəngli rəsm çəkib - "Azərbaycanlı qadın" və "Pəhləvanlar". Qalan əsərləri ağ-qaradır. Rəssamın çox maraqlı əl işi olan "Mollaxana" və digər qiymətli əsərləri sürgün dövründə it-bat olur.

Görkəmli fırça ustası qrafika sahəsində geniş fəaliyyət göstərib. "Köhnə Bakı" silsiləsi, "M.Ə.Sabir", "Bakılılar Berlində", "Çaybecərənlər" və s. linoqravüralar yaradıb. Əsərləri bu gün Moskvada (A.S.Puşkin, Şərq Xalqları İncəsənəti Muzeyi), Sankt-Peterburqda (Ermitaj), eləcə də Bakıda Milli İncəsənət Muzeyində saxlanılır.

Həyat və yaradıcılıq sevincini doya-doya yaşaya bilməyən, yanvarda doğulub, ömrünün təxminən yarısını soyuq Şimalda keçirməyə məcbur olan fırça ustası 1974-cü ilin 31 yanvarında Bakıda vəfat edib.

**Savalan FƏRƏCOV**

## "Qulliverin səyahəti" əsasında videoçarx

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Səbail rayon MKS-nin Mərkəzi kitabxanasında "Kitabxanaçı tövsiyə edir" adlı layihə çərçivəsində ingilis-irland yazıçısı Conatan Sviftin "Qulliverin səyahəti" romanı əsasında videoçarx hazırlanıb.

Qeyd edək ki, "Qulliverin səyahəti" Conatan Sviftin ən məşhur əsəridir. Fantastik macəralar fonunda İngiltərənin sosial-siyasi mənzərəsini əks etdirən bu əsər üç əsrə yaxındır ki, həm balacalar, həm də böyüklər tərəfindən sevilə-sevilə oxunur.

## Azərbaycanlı şairin gürcü dilində kitabı çapdan çıxıb

Tbilisidə azərbaycanlı şair Nurhafizin (Nurhafiz Hüseynov) şeirlər kitabı gürcü dilində işıq üzü görüb.

Şeirləri Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri Mirzə Məmmədoğlu (Maşov) sətri tərcümə edib. Sonra gürcü şairləri Koba Arabuli, Revaz Daneliya, Eter Zaridze, Temur Cumbaşvili və başqaları şeirləri poetik dilə çeviriblər.

1958-ci ildə Gürcüstanın Qardabani rayonunun Ağ Təhlə




kəndində anadan olan Nurhafiz gürcü oxucularına yaxşı tanışdır. Onun şeirlərini ilk dəfə gürcü dilinə mərhum tərcüməçi Zezva Medulaşvili tərcümə edib. Z.Medulaşvili "Koroğlu" dastanını, Nəsimi, Molla Pənah Vaqif, Məmməd Araz, İsa İsmayılzadə və digər şairlərimizin əsərlərini gürcü dilinə tərcümə edib.

Kitabda Nurhafizin Zezva Medulaşvilinin tərcüməsində vaxtilə "Literaturuli Sakartvelo" ("Ədəbi Gürcüstan") qəzetində və "Siskari" ("Dan ulduzu") ədəbi jurnalında dərc olunmuş şeirləri də yer alıb.

## Xatirə təqvimi — 26-28 yanvar

### Azərbaycan

**26 yanvar 1863** - Maarifçi alim, ədəbiyyatşünas və publisist Firidun bəy Köçərli (1863-1920) Şuşada doğulub. Qori Müəllimlər Seminariyasında dərs deyib, seminariyanın Azərbaycan bölməsi Qazaxa köçürüləndən sonra bu maarif ocağına rəhbərlik edib.

**26 yanvar 2006** - Xanəndə, Xalq artisti İslam Tapdıq oğlu Rzayev (11.11.1934 - 2006) vəfat edib. Mahnılar ("Gəl, inad etmə", "Dağlar başı" və s.) bəstələyib. Muğam Teatrının yaradıcısı və 20 ilə yaxın bədii rəhbəri olub.

**27 yanvar 1806** – Yazıçı, mütəfəkkir İsmayıl bəy Qutqaşınlı (1806-1869) keçmiş Qutqaşın mahalında (indiki Qəbələ) anadan olub. Fransız dilində yazdığı "Rəşid bəy və Səadət xanım" povesti ilk Azərbaycan nəsr əsəri sayılır. Çar Rusiyası ordusunda qulluq edib, general rütbəsinədək yüksəlib.

**27 yanvar 1906** – Tarixçi alim Sara Aşurbəyli (1906 - 17.7.2001) anadan olub. Orta əsrlər Azərbaycan şəhərlərinin tarixinə dair araşdırmalar aparıb. Rəsm əsərlərinin müəllifidir.

**27 yanvar 1912** – Əməkdar memar Fərəc Səttar oğlu Fərəcov (1912 - 7.9.1990) anadan olub.

**27 yanvar 1939** – Aktrisa Ofeliya Rza qızı Əfqanlı (Ofeliya Aslan; 1939 – 18.2010) anadan olub. Musiqili Komediya Teatrında çalışıb. "Xoşbəxtlik qayğıları", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**27 yanvar 1939** – Ustad saz ifaçısı, Əməkdar incəsənət xadimi Ədalət Məmmədəli oğlu Nəsibov (Aşıq Ədalət; 1939 – 14.9.2017) Qazax rayonunda anadan olub.

**28 yanvar 1908** – Bəstəkar, Azərbaycanın Əməkdar incəsənət xadimi Boris İsaakoviç Zeydman (1908-1981) Peterburqda anadan olub. Ü.Hacıbəylinin dəvəti ilə Bakıya gəlib, Dövlət Konservatoriyasında dərs deyib (1940-60).

**28 yanvar 1925** – Şair, dramaturq Adil Qafar oğlu Babayev (1925 - 19.8.1977) anadan olub.

**28 yanvar 1985** – SSRİ Xalq artisti, rejissor, sənətşünaslıq doktoru, professor Mehdi Əsədulla oğlu Məmmədov (22.5.1918 - 1985) vəfat edib. Milli Dram, Opera və Balet, Rus Dram teatrlarında rejissor işləyib.

### Dünya

**26 yanvar 1925** – Amerika aktyoru, rejissor Pol Nyuman (Paul Leonard Newman; 1925-2008) anadan olub. Filmləri: "Fırıldaqçı", "Soyuqqanlı Lük", "Pulların rəngi" ("Oskar", 1986) və s.

**27 yanvar 1756** – Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Joannes Chrysostomus Wolfgang Theophilus Mozart; 1756-5.12.1791) Zalsburq şəhərində doğulub. Alman dilində ilk operanın ("Hərəmxanadan qaçırılma"), müxtəlif alətlərlə orkestr üçün 40-a yaxın əsərin müəllifidir.

**27 yanvar 1775** - Alman filosofu Fridrix Vilhelm Şellinq (Friedrich Wilhelm Joseph von Schelling; 1775-1854) anadan olub. Əsərləri: "İncəsənət fəlsəfəsi", "Etiraf fəlsəfəsi" və s.

**28 yanvar 1912** – Amerika rəssamı, abstrakt ekspressionizmin banisi Pol Cekson Pollak (Paul Jackson Pollock; (1912-1956) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 26-29 yanvar

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 26 yanvar | F.Şubert - "Dahi hekayəçi" (balet, premyera) | 19.00 |
| 27 yanvar | Z.Hacıbəyov - "Aşıq Qərib" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 26 yanvar | Ə.Cahangirov - "Buratino" | 12.00 |
| | C.Məmmədquluzadə - "Ölülər" | 19.00 |
| 27 yanvar | C.Rodari - "Çipollino" | 12.00 |
| | M.S.Ordubadi - "Qətibə İnanc" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 26 yanvar | H.K.Andersen - "Düyməcik" (rus dilində) | 12.00 |
| | E.Sabitoğlu, T.Vəliyeva - "Bankir adaxlı" | 19.00 |
| 27 yanvar | R.Mirişli, M.Haqverdiyev - "Amerikalı kürəkən" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 26 yanvar | Y.Entin, V.Livanov - "Bremen musiqiçiləri" (12.00, 14.00, 16.00) | |
| 27 yanvar | P.Culliford - "Şirinlər" | 12.00, 14.00 |
| 28 yanvar | Azərbaycan xalq nağılı - "Tənbəl Əhməd" | |
| 29 yanvar | M.F.Axundzadə - "Hekayəti-xırs-quldurbasan" | |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 19 yanvar | V.Neverov - "Düyməcik" | 12.00 |
| | N.Qoqol – "Evlənmə" (premyera) | 19.00 |
| 27 yanvar | K.Qoldoni – "Senyor Todero-xuliqan" | 19.00 |
| 28-29 yanvar | V.Neverov - "Düyməcik" | 12.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 26 yanvar | Ş.Perro - "Qırmızıpapaq" (12.00, 14.00, 16.00) | |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 18.00 |
| 27 yanvar | Ərəb xalq nağılı - "Əlibaba və qırx quldur" (12.00, 14.00) | |
| | C.Rodari - "Çipollino" (rus dilində) | 16.00 |
| 28 yanvar | K.Ağayeva - "Göyçək Fatma" (12.00, 14.00) | |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |
| 29 yanvar | V.İlyuxov - "Oyaq gözəl" (12.00, 14.00) | |
| | V.İlyuxov - "Oyaq gözəl" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 26 yanvar | P.Nurəliyeva - "Sonuncu" | 19.00 |
| 27 yanvar | Klim - "Medeya Sekvensiya-01" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 26-27 yanvar | B.Xanızadə - "Adajio" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 28 yanvar | "Gənclərə dəstək" layihəsində konsert Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (solist - Çinarə Heydərova - qanun) | 19.00 |
| 29 yanvar | Əməkdar incəsənət xadimi, bəstəkar Kamal Əhmədovun 70 illik yubiley gecəsi Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (dirijor – Ağaverdi Paşayev) | 19.00 |



# “Üçüncü günün adamı” Bolqarıstanda nümayiş etdirilib




Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan “Üçüncü günün adamı” bədii filmi Bolqarıstan paytaxtında keçirilən 11-ci MENAR Film Festivalı çərçivəsində nümayiş etdirilib. Filmin təqdimatı ölkəmizin Bolqarıstandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan kino gecəsində baş tutub.

Sofiyanın “Kino evi”ndə keçirilən gecədə əvvəlcə festivalın təşkilatçıları Zdravko Qriqorov və Angel Hadjiyski filmin nümayiş olunacağı vaxtlar barədə məlumat verib.

Sonra çıxış edən ölkəmizin Bolqarıstandakı səfiri Nərgiz Qurbanova ötən il Azərbaycan kinosunun 120 illik yubileyinin qeyd olunduğunu diqqətə çatdıraraq il ərzində filmlərimizin Bolqarıstanın Sofiya, Burqas, Varna, Plovdiv, Sozopol və Ruyen şəhərlərində nümayiş etdirildiyini bildirib.

“Üçüncü günün adamı” filmindən söz açan səfir ekran əsərində 2014-cü ildə ölkəmizin işğal olunmuş Kəlbəcər rayonunda valideynlərinin qəbirlərini ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş Dilqəm Əsgərovun və Şahbaz Quliyevin taleyinin əks olunduğunu söyləyib. Vurğulanıb ki, beynəlxalq ictimaiyyət tərəfindən sərt qınağa baxmayaraq, Dilqəm Əsgərov və Şahbaz Quliyev hələ də əsirlikdə saxlanılır. Azərbaycanın işğal olunmuş ərazilərində qondarma separatçı rejim tərəfindən onlar üzərində qurulmuş saxta “məhkəmə prosesi” nəticəsində Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyevin isə 22 il müddətinə azadlıqdan məhrum edilib.



Səfir “Üçüncü günün adamı” filmində Ermənistanın hərbi təcavüzü nəticəsində öz doğma evlərindən didərgin salınmış bir milyon azərbaycanlının faciəsindən bəhs olunduğunu diqqətə çatdırıb. Bildirib ki, film 2017-ci ildə Kanadada 41-ci Monreal, Misirdə 39-cu Qahirə film festivallarında nümayiş etdirilib, Türkiyədə 5-ci Antakya kinofestivalında mükafata layiq görülüb.

Gecədə Bolqarıstanın dövlət qurumlarının təmsilçiləri, xarici ölkələrin səfirliklərinin nümayəndələri, incəsənət xadimləri, kinosevərlər iştirak ediblər.

Qeyd edək ki, “Üçüncü günün adamı” filmi MENAR festivalı çərçivəsində üç fərqli kinoteatrda nümayiş etdiriləcək.

2017-ci ildə dövlət sifarişi ilə istehsal olunan filmin quruluşçu rejissoru Babək Şirinsifət, ssenari müəllifi Maqsud Qarayşa, quruluşçu operatoru Rafiq Quliyev, quruluşçu rəssamları Rafiq Nəsirov, Arif Niftiyevdir. Rolları Hikmət Rəhimov, Rasim Cəfərov, Kamran Ağabalayev, Nicat Həbibov, Vidadi Əliyev, Mehriban Zəki və digər aktyorlar canlandırıblar.

## “İşıqlı kuklalar şousu”nda ikinci seans




Xəbər verdiyimiz kimi, fevralın 17-də (saat 13.00) Heydər Əliyev Sarayında Moskvadakı “Nikolay Zıkov Teatrı”nın “İşıqlı kuklalar şousu” təqdim olunacaq.

Bu unikal tamaşa bütün dünyada sevilir. 1 metrdən 8 metrədək ölçüsü olan qeyri-adi işıqlı kuklalar hər yaşda tamaşaçıların böyük marağına səbəb olur.

Bakıda ilk dəfə keçiriləcək şouya göstərilən maraq və çoxsaylı tamaşaçı müraciətləri nəzərə alınaraq həmin gün əlavə daha bir seansın (saat 16.00) keçirilməsi qərara alınıb. İkinci seansın biletləri artıq satışdadır.

Nikolay Zıkov dünyanın ən tanınan kuklaçılarından biridir. 200-dən çox kukla yaradan, dünyanın 40-dan artıq ölkəsində tamaşalarla çıxış edən N.Zıkov 20-dən çox kukla şousunun müəllifi, rejissoru və rəssamıdır.

## “Oturacaqlar”ı beynəlxalq müsabiqəyə aparacaqlar




Gənc Sinemaçılar Klubunun üzvü Orxan Ağazadənin “Oturacaqlar” filmi Çexiyada Praqa Beynəlxalq qısa film festivalı və Fransada “Angers Premiers Plans” film festivalının “European Student films” müsabiqəsinə dəvət alıb.

Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasından bildirilib ki, azərbaycanlı və ingilis kinematoqrafçıların birgə istehsalı olan filmin ssenaristi və quruluşçu rejissoru Orxan Ağazadə, quruluşçu operator, Kameron Vard, quruluşçu rəssamı Lara Zeidandir. Rolları Səyyad Əliyev, Zülfiyyə Nəzər Məmmədova, İsgəndər Abbasov və başqaları oynayır.

## Cillian Anderson Marqaret Tetçeri canlandıracaq



Amerikalı aktrisa Cillian Anderson “Tac” serialında Böyük Britaniyanın keçmiş baş naziri Marqaret Tetçerin obrazını canlandıracaq.

“Tac” serialında kraliça II Elizabetin 1947-ci ildə keçirilən toy mərasimi anından başlayaraq həyatından danışılır. 50 yaşlı Anderson 1979-1990-cı illərdə Britaniyanın baş naziri olmuş “dəmir ledi”nin rolunu ifa edəcək. Həmçinin bildirilir ki, Anderson “Tac” serialının bu yay çəkilişlərinə başlanılacaq dördüncü mövsümündə iştirak edəcək. Serialın yeni mövsümdə ekranlara çıxarılması 2020-ci ilə planlaşdırılıb.

Cillian Anderson “Emmy” və “Qızıl qlobus” mükafatlarının sahibidir.

# Əsas “Oskar” uğrunda səkkiz film yarışır

Los-Ancelesdə keçirilən mərasimdə Amerika Kino Akademiyasının 2019-cu ildə “Oskar” mükafatına nominantlar elan edilib.

Mükafat 24 nominasiyada, o cümlədən “Ən yaxşı film”, “Ən yaxşı rejissor”, baş və ikinci plan rolunda aktyor, “Əcnəbi dildə ən yaxşı film”, “Ən yaxşı tammetrajlı animasiya filmi” və s. nominasiyalarda təqdim edilir.

Əsas “Oskar” (“Ən yaxşı film” nominasiyası) uğrunda səkkiz film yarışacaq. İddiaçılar sırasına rejissor Rayan Kuqlerin “Qara pantera”, Piter Farrellinin “Yaşıl kitab”, Bredli Kuperin “Ulduz doğuldu”, Alfonso Kuaronun “Roma” və başqa filmlər daxildir.

Nominantların rəsmi elanından sonra səsvermənin ikinci mərhələsi başlanıb.



Amerika Kino Akademiyasının üzvləri fevralın 19-dək hər nominasiya üzrə iddiaçı üçlükləri müəyyən edəcəklər.

Amerika kino tənqidçiləri “Ən yaxşı film” kateqoriyasında “Oskar”a namizəd Bredli Kuperin kantri ifaçısı ilə gənc müğənninin sevgisindən danışılan “Ulduz doğuldu” melodramının, Alfonso Kuaronun 1970-ci illərdə Meksika ailəsinin ağır həyatı haqqında “Roma” dramının və Piter Farrellinin məşhur caz pianoçusu Don Şirli, onun sürücüsü və mühafizəçisi Toni Lipin 1962-ci ildə ABŞ-ın cənubuna səyahəti ilə bağlı real əhvalatlardan bəhs edən “Yaşıl kitab” filmlərinin adını çəkirlər. “The Hollywood Reporter” jurnalı isə hesab edir ki, bu filmlərin mükafat qazanma şansı 98-99 faizə bərabərdir.

Xatırladaq ki, 91-ci “Oskar” mükafatlarının təqdimatı fevralın 24-də keçiriləcək.

# Bakıda Meksika milli mətbəxi təqdim olunub

Dünya xalqlarının mətbəxi milli mədəniyyətin ən yaxşı təşviqatçıları sırasındadır. Meksika mətbəxi yalnız meksikalıların və bu Latın Amerikası ölkəsini ziyarət edən çoxsaylı turistlərin ağız dadını oxşamır, eyni zamanda zəngin Meksika mədəniyyətinin bir hissəsini ölkə hüdudlarından kənarda nümayiş etdirir.



Meksikanın ölkəmizdəki səfirliyindən bildirilib ki, azərbaycanlıları bu ölkənin mədəniyyəti, əlahiddə mətbəxi ilə daha yaxından tanış etmək məqsədilə səfirliyin “Meat” restoranı ilə əməkdaşlığı əsasında Meksika milli təamlarının təqdimatı təşkil edilib.

Tədbirdə səfir Xuan Rodriqo Labardini ölkəsinin zəngin mətbəx mədəniyyəti barədə danışıb. Bildirib ki, Meksika milli mətbəxi 2010-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Vurğulayıb ki, bu sektor milli iqtisadiyyat üçün də böyük əhəmiyyət kəsb edir, ölkədə 5,5 milyon iş yeri yaradır. Milli mətbəx nəsillər vasitəsilə ötürülərək Meksika xalqının qeyri-maddi dəyərlərini təşkil edir.

Tədbir iştirakçıları “Mariaçi Bakı” qrupunun musiqili sədaları altında Meksika milli mətbəxi, mədəniyyəti, adət-ənənələri ilə tanış olublar.

**LALƏ**

## Mişel Obamanın kitabı ən çox satılanlar arasında

Birləşmiş Ştatların keçmiş birinci ledisi Mişel Obamanın ötən ilin sonunda satışa çıxarılan “Təşəkkül” (“Becoming”) kitabı ən çox satılan nəşrlər sırasında birinci yerdədir. Bu, həmçinin son 10 il üzrə ən çox satılan kitablardan biridir.

Mişel Obamanın memuarları noyabrın 13-də çapdan çıxıb və ötən iki ayda “Amazon”da ən çox satılan kitabların daim yenilənən siyahısında birinciliyi qoruyub saxlayıb. Kitabın satış sayı barədə rəqəm göstərilməsə də, bildirilir ki, “Təşəkkül” 2018-ci ildə satışa çıxarılan və böyük rezonans doğuran ABŞ Prezidenti Donald Tramp haqqında nəşrləri – “Rusiyanın aldanması”, “Od və qəzəb” kimi kitabları da bir neçə həftə ərzində kölgədə qoyub.

## Dünyada ən böyük dəf

Tacikistanın Kulyab şəhərindəki musiqi alətləri ustası Saidnodir Xaydarov dünyada ən böyük doyra (dəf) hazırlayıb.

Dəfin diametri 1,7 metr, ağırlığı 34 kiloqramdır. Dəfi dörd musiqiçi çalır və hər musiqiçinin sahəsində müxtəlif səslər çıxır.

Saidnodir Xaydarov diametri 2 metr olan dəf düzəltmək haqqında da düşünür.

# Daşkənddə aşkarlanan dəfinə kimə məxsusdur?

Özbəkistanın paytaxtı Daşkənddə bir evin zirzəmisindən dəyəri milyon dollardan çox olan dəfinə aşkar edilib. Qiymətli maddi dəyərlər Özbəkistanın Milli Universitetinin alimləri tərəfindən aparılan qazıntılar zamanı aşkarlanıb.

Xəzinənin aşkar edildiyi bina 1870-ci ildə inşa edilib və zirzəmisindən tapılan nadir nümunələr qızıl və gümüş sikkələr, qızıl qablar, qədim rəsm əsərləri və qiymətli metallardan hazırlanmış zinət əşyalarından ibarətdir. Bundan əlavə, tapılan xəzinə nümunələrinin sırasında XV əsr Özbək (Türk) xanlığına aid onlarla sənəd də yer alır.

Tapıntıların tam siyahısı hələ ki, açıqlanmayıb. Ekspert qrupu ərazidə araşdırmaları davam etdirməkdədir. Əldə olunan artefaktların bərpa edilmək üçün Almaniya və Polşadakı laboratoriyalara göndərilməsi nəzərdə tutulub. Bir qisim nümunələr isə Daşkənd muzeyində sərgilənəcək.

Alimlər təxmin edirlər ki, xəzinə çar ordusunun generalı olmuş Jurabek və knyaz Nikolay Konstantinova aid ola bilər.




General Jurabek vaxtilə Daşkənddə bütün Türküstan üzrə zəngin Şərq əlyazmalarından ibarət ən böyük kitabxana toplaya bilmişdi. Tapılan eksponatların knyaz Nikolay Konstantinova məxsusluğu da ehtimal edilir. Belə ki, o, vaxtilə anasının qiymətli brilyantlarını oğurladığına görə 1881-ci ildə Peterburqdan Daşkəndə sürgün edilmişdi. Knyaz tərəfindən Peterburqdan toplanaraq Türküstana gətirilən Avropa və rus rəssamlarının əsərlərindən ibarət kolleksiya sovetləşmədən sonra Daşkənddə İncəsənət Muzeyi yaradılarkən onun əsas fondunu təşkil etmişdi. Knyaz həmçinin mərmər heykəltəraşlıq nümunələri, qədim silahlar və digər əntiq əşyalar kolleksiyasına sahib idi. Ölümündən sonra isə bu sərvəti sevimli şəhəri Daşkəndə vəsiyyət etmişdi.

**L.AZƏRİ**

## Tutanxamonun məqbərəsi tam bərpa edilib



Los-Anceles İncəsənət Əsərlərinin Qorunub Saxlanılması İnstitutunun və Misir Qədim Abidələr Nazirliyinin mütəxəssisləri məşhur Tutanxamon məqbərəsinin bərpası işlərini başa çatdırıblar.

On il əvvəl başlayan yenidənqurma işləri 2016-cı ildə həlledici mərhələyə qədəm qoymuşdu. Layihə 3 min il yaşı olan məqbərənin özünün və içərisindəki divar naxışlarının bərpasını nəzərdə tuturdu.

Qədim Misirin ən məşhur fironlarından olan Tutanxamon eramızdan əvvəl təqribən 1332-1323-cü illərdə hakimiyyətdə olub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 299
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.